AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
7 MAY 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 99 (6426) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç.

Şeremetyevo aeroportunda təyyarənin qəza enişi nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 may 2019-cu il.**

# Prezident İlham Əliyev "Rusiya Dəmir Yolları" ASC-nin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan tərəfinin Rusiya Dəmir Yolları ilə əməkdaşlıqdan məmnunluğunu bildirərək, Oleq Belozyorovun ölkəmizə səfərinin əlaqələrin perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, Azərbaycanla Rusiyanın dəmir yolu sahəsindəki imkanları gələcəkdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı şərait yaradacaq. Rusiyadan Azərbaycan vasitəsilə tranzit yüklərin artdığını qeyd edən dövlətimizin başçısı bu sahədə yeni addımların atılacağına əminliyini ifadə etdi.

Azərbaycan Dəmir Yolları ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini deyən "Rusiya Dəmir Yolları" Açıq Səhmdar Cəmiyyətinin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov bu ilin birinci rübündə daşımaların həcminin 25 faiz artmasını bunun çox yaxşı göstəricisi kimi dəyərləndirdi. Dəmir yolu sahəsində əlaqələrin inkişafına iki dövlət başçısının daim dəstək verməsinin böyük önəm daşıdığını qeyd edən qonaq tranzitin təşkili və yeni marşrutların müəyyən edilməsinin ölkələrimizin iqtisadi inkişafına öz töhfəsini verdiyini bildirdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Heydər Əliyev Fondunun 15 illiyi münasibətilə və Azərbaycanın ictimai və mədəni həyatında səmərəli fəaliyyətlərinə görə Heydər Əliyev Fondunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Ələkbərov Anar Sahib oğlu

**"Tərəqqi" medalı ilə**

Ağayeva Şəmirə Vahid qızı
Bayramov Azər Novruz oğlu
Əliyeva Gülşən Şəfa qızı
Məmmədov Emin Səlhab oğlu
Məmmədov Soltan Teymur oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 may 2019-cu il.**

## "Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 761 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 225; 2017, N 12, maddə 2334; 2018, N 4, maddə 660; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 mart tarixli 587 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Preambulaya "orqanlarının" sözündən sonra ", dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri əlavə edilsin və preambulada "orqana" sözü "instansiyaya" sözü ilə əvəz edilsin.

**2.** Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası haqqında Əsasnamə" üzrə:

*2.1.* 1.1-ci bəndə "orqanlarının" sözündən sonra ", dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri əlavə edilsin, həmin bənddə "orqana" sözü "instansiyaya" sözü ilə əvəz edilsin;

*2.2.* 1.3-cü bənddən "şikayətləri üzrə" sözləri çıxarılsın;

*2.3.* 1.3-cü bəndə və 2.0.1-ci yarımbəndə "orqanlarının" sözündən sonra ", dövlətə məxsus olan hüquqi şəxslərin" sözləri əlavə edilsin;

*2.4.* 7.9-cu bəndə "orqana" sözündən sonra "(dövlətə məxsus olan hüquqi şəxsə)" sözləri, "orqan" sözündən sonra "(dövlətə məxsus olan hüquqi şəxs)" sözləri və "orqanın" sözündən sonra "(dövlətə məxsus olan hüquqi şəxsin)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 may 2019-cu il.**

## Horadiz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsi və yenidən qurulması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Horadiz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin layihələndirilməsi və yenidən qurulması işlərinin görülməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 6,0 (altı) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 may 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 13 noyabr tarixli 483-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 23 noyabr tarixli 654 nömrəli, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" 2009-cu il 9 fevral tarixli 48 nömrəli, "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"nın və "Dövlət qurumlarının dövlət xəzinədarlığı məlumatlarına real vaxt rejimində çıxışının təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 15 may tarixli 72 nömrəli fərmanlarında və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın təsdiq edilməsi haqqında" 2018-ci il 24 avqust tarixli 424 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1359-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 avqust tarixli 610 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 420 nömrəli Fərmanının 1.1-ci bəndinin icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 13 noyabr tarixli 483-İİİQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 noyabr tarixli 654 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 11, maddə 1102) 2-ci hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 2, maddə 61, N 7, maddə 533, N 10, maddə 780, N 12, maddə 983; 2010, N 2, maddələr 77, 80; 2011, N 2, maddə 85; 2015, N 2, maddə 108, N 9, maddə 988; 2016, N 9, maddə 1479; 2017, N 5, maddə 771, N 6, maddə 1081; 2018, N 1, maddə 47, N 3, maddə 450, N 5, maddə 912, N 12 (I kitab), maddələr 2556, 2572; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 568 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.31-ci bəndinə "dövlətin daxili və xarici borclarının" sözlərindən sonra ", il ərzində veriləcək dövlət zəmanətinin məbləğinin" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 may tarixli 72 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 5, maddə 940, N 12 (I kitab), maddə 2556) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət qurumlarına təqdim etdiyi hesabatların formaları və onların təqdim edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* 2.0.15-ci, 2.0.27-ci yarımbəndlərdə, həmin Qaydaya 6 nömrəli əlavənin cədvəlində, 15 və 27 nömrəli əlavələrin adlarında "Dövlət zəmanəti ilə alınan borcların" sözləri "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin" sözləri ilə əvəz edilsin;

*3.2.* həmin Qaydaya 22 nömrəli əlavənin 1.2-ci və 3.8-ci bəndlərində "Dövlət zəmanəti ilə alınmış borcların" sözləri "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 424 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 8, maddə 1758, N 12 (I kitab), maddə 2556) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"nın 3-cü hissəsində və 7.3-cü bəndində (hər iki halda) "Dövlət zəmanəti ilə alınan borcların" sözləri "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 6 may 2019-cu il.**

## Ramazan ayının başlanması münasibətilə təbrik

Əziz həmvətənlər.

Sizi Ramazan ayının - orucluq və mənəvi yenilənmə, düşünmək və dua etmək, bağışlamaq və mərhəmət ayının başlanması münasibətilə təbrik edirəm. Bu müqəddəs ay bütün dünyada milyonlarla müsəlman üçün mənəvi kamilləşmə, nəcib və xeyirxah işlər dövrüdür.

Azərbaycanda çoxəsrlik tarixi olan mənəvi ənənələrə hörmətlə yanaşılır. Bu ənənələrin əxlaqi və etik əsasları dəyişməz qalır. Çünki yaxınlarına qayğı, xeyirxahlıq və mərhəmət bütün dövrlərdə yüksək qiymətləndirilib.

Əminəm ki, Ramazan ayı birlik və həmrəylik, hörmət və qarşılıqlı anlaşma dövrü olacaq. Qoy Ulu Tanrı bu müqəddəs günlərdə sizin bütün dualarınızı eşitsin və qəbul etsin. Sizə sülh, xoş günlər, səadət və rifah arzulayıram.

**Mehriban ƏLİYEVA,**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti.**

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



**Mayın 6-da Yeni Azərbaycan Partiyasının nümayəndələri, partiyanın İdarə Heyətinin, Siyasi Şurasının üzvləri, Milli Məclisin deputatları, rayon və şəhər təşkilatlarının fəalları müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

**AZƏRTAC**

# Yeni Azərbaycan Partiyası "Heydər Əliyev irsi və sosial siyasət" mövzusunda konfrans təşkil edib







**Mayın 6-da Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə "Heydər Əliyev irsi və sosial siyasət" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilib.

Tədbirdə YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları iştirak ediblər.

Azərbaycanın Baş nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov çıxış edərək ulu öndər Heydər Əliyevin xalqımızın rifahı, dövlətimizin inkişafı üçün gördüyü işlərdən danışıb. Bildirilib ki, Ümummilli Liderin apardığı siyasətin əsasında sosial siyasət dururdu. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilir. Sosial rifah məsələsi, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması dövlətimizin başçısının apardığı siyasətin əsas sahələrindəndir. Son bir neçə ay ərzində əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı Prezident İlham Əliyev tərəfindən əhəmiyyətli qərarlar qəbul edilib. Bu işlər bundan sonra da davam etdiriləcək.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Ümummilli Liderin ölkəmizə rəhbərlik etdiyi illəri quruculuq, abadlıq, inkişaf dövrü kimi xarakterizə edib. Bildirib ki, Ulu Öndərimiz xüsusi qayğıya ehtiyacı olan şəxslərə böyük diqqətlə yanaşır, onların ehtiyaclarının ödənilməsini daim diqqətdə saxlayırdı. Hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir.

Nazir qeyd edib ki, Azərbaycan dünyada yoxsulluğu beş faizə endirən 29 ölkədən biridir. 2003-cü ildən bu günədək əməkhaqları yeddi dəfə artırılıb. Minimum əməkhaqqı dəfələrlə artırılıb. Minimum pensiya 40 faiz artırılıb. Prezident İlham Əliyevin qəbul etdiyi bu mühüm qərarlar ölkəmizdə sosial ədalətin qorunduğunun əyani göstəricisidir.

**AZƏRTAC**

# Yaponiyanın "Fuji Optical" şirkətinin Azərbaycana humanitar yardım missiyalarının 15 illiyi qeyd edilib







**Mayın 6-da Bakıda Yaponiyanın "Fuji Optical" şirkətinin Azərbaycana görmə qabiliyyətinin yaxşılaşdırılmasına yardım missiyalarının 15 illiyi ilə əlaqədar tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, BMT və digər beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycandakı nümayəndəliyinin hüquq şöbəsinin müdiri, nümayəndənin səlahiyyətlərini müvəqqəti icra edən Oktavian Mohorea "Fuji Optical" şirkətinin 15 ildir xeyirxah missiya həyata keçirdiyini və 31 mindən çox qaçqın, məcburi köçkün, aztəminatlı ailənin bu aksiyadan yararlandığını deyib. O, humanitar aksiyanın bu həftədən etibarən yenidən başlayacağını və Bakı ilə yanaşı, regionlarda da həyata keçiriləcəyini diqqətə çatdırıb.

Baş nazirin müavini, Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının sədri Əli Həsənov bu xeyirxah təşəbbüsə görə Yaponiya hökumətinə minnətdarlığını bildirib. Gündoğar ölkənin özəl şirkətinin 2005-ci ildən ölkəmizdə xeyirxah missiyalar həyata keçirdiyini deyən Əli Həsənov təxminən 59 min yüksəkkeyfiyyətli eynəyin paylanıldığını, minlərlə qaçqın, məcburi köçkün və aztəminatlı ailənin ödənişsiz göz müayinəsi xidmətlərindən faydalandığını qeyd edib. O, şirkətin rəhbəri Akio Kanainin 2006-cı ildə "Nansen Qaçqın Mükafatı" ilə təltif olunduğunu xatırladıb.

Baş nazirin müavini Azərbaycan-Yaponiya əlaqələrinin inkişaf etdiyini vurğulayıb. O, dövlətimizin başçısının bu əlaqələrin genişlənməsinə diqqət göstərdiyini bildirib. O, ölkəmizə humanitar yardım göstərən ölkə və təşkilatların xeyirxah təşəbbüslərinin hər zaman yüksək qiymətləndirildiyini deyib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai "Fuji Optical" şirkətinin Azərbaycanda həyata keçirdiyi humanitar missiyalara 2,8 milyon dollardan çox vəsait xərcləndiyini deyib. Əlavə edib ki, 1992-ci ildən etibarən BMT QAK Azərbaycana humanitar yardımlar edir. Humanitar yardımlar davamlı inkişaf məqsədlərinə nail olmaq üçün böyük əhəmiyyət kəsb edir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox soydaşımızın öz yurd-yuvalarından didərgin salındığını deyib. O, Azərbaycanın çətin günlərində ona yardım edən hər bir ölkə və təşkilata, o cümlədən Yaponiyanın "Fuji Optical" şirkətinə minnətdarlığını bildirib.

Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tereyuki Katori humanitar missiyanın 15 illiyinin qeyd edilməsinin qürurverici olduğunu deyib. Səfir Yaponiyanın Azərbaycanda həyata keçirdiyi layihələr haqqında məlumat verib.

"Fuji Optical" şirkətinin rəhbəri Akio Kanai yenidən Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O, səhhəti imkan verdikcə bu aksiyanı davam etdirəcəyini deyib. A.Kanai missiyanın ərsəyə gəlməsində köməyi olan hər kəsə, o cümlədən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə və xalqına minnətdarlığını bildirib.

Qeyd edək ki, bu il, "Fuji Optical" şirkəti BMT QAK-a 3300 eynək, həmçinin görmə və eşitmə ilə əlaqəli digər əşyalar ianə edib. Şirkət mayın 7-dən 13-dək Yevlax, Goranboy və Bakı şəhərlərində altı gün ərzində eynək paylanılmasını həyata keçirməklə yanaşı, 2400 məcburi köçkün, qaçqın və sığınacaq axtaran şəxsi müayinə etməyi planlaşdırır.

**AZƏRTAC**

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasının 5 illiyi qeyd olunub







**Mayın 6-da Beynəlxalq Muğam Mərkəzində Azərbaycan multikulturalizminin banisi ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) yaradılmasının 5 illiyinə həsr edilmiş tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü Leyla Əliyeva iştirak edib.

Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib.

Sonra BBMM-in icraçı direktoru Rəvan Həsənov çıxış edərək deyib ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli Fərmanı ilə yaradılıb. Azərbaycanın multikulturalizm modelinin siyasi banisi məhz ulu öndər Heydər Əliyevdir. Əgər ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti olmasaydı, bu gün Azərbaycanda xalqlararası dostluqdan, mədəniyyətlərarası, dinlərarası dialoqdan, din-dövlət münasibətlərindən danışmaq mümkün olmazdı. Bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və qlobal müstəvidə həyata keçirilir. Azərbaycanın multikulturalizm modeli dünyada hər kəs tərəfindən etiraf olunur. Birinci vitse-prezident Mehriban Əliyevanın, Heydər Əliyev Fondunun vitse-prezidenti, BBMM-in Himayəçilik Şurasının üzvü Leyla Əliyevanın təşəbbüsü ilə xarici ölkələrdə həyata keçirilən tədbirlər ölkəmizin multikulturalizm modelinin, Azərbaycandakı tolerantlıq mühitinin təbliğ olunmasında müstəsna rol oynayır. Mərkəzin yaradılmasında əsas məqsəd ondan ibarət idi ki, Azərbaycanın sahib olduğu multikulturalizm dəyərləri, mədəniyyətlərarası və xalqlararası dostluq təbliğ olunsun. Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan dünyada multikulturalizm ünvanlarından biri kimi tanınır. Bu, dövlətimizin başçısının siyasətidir. BBMM də bu siyasətə öz töhfəsini verir.

Sonra BBMM-in 5 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev ötən 5 il ərzində görülən işlərdən danışıb. Bildirib ki, multikulturalizmin mənəvi, qürurverici istiqamətini Prezident İlham Əliyev müəyyən edib. Dövlətimizin başçısı 5 il bundan əvvəl deyib ki, Azərbaycan xalqının qanındakı multikulturalizm əhval-ruhiyyəsini bütün dünya daha yaxşı bilməlidir.

Kamal Abdullayev deyib ki, Azərbaycanda müxtəlif dini konfessiyaların, etnik



qrupların nümayəndələri qardaşlıq şəraitində yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyev sübut etdi ki, multikulturalizmin şərəfli və nikbin bir qütbü də var. BBMM yarananda dövlətimizin başçısı qarşıya vəzifə qoymuşdu ki, Azərbaycan multikulturalizmi hərəkatı bütün dünyanın nəzərinə çatdırılsın. Hesab edirəm ki, BBMM bu vəzifənin öhdəsindən gəldi. Dünyanın 20-yə yaxın universitetində Azərbaycan multikulturalizmi fənni tədris olunur, dərsliklər çap edilir. Bu fənni keçən gənclər qış və yay məktəblərində iştirak edirlər.



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov deyib ki, BBMM müasir dövrdə Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm rol oynayır. Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Bu siyasətin əsasında ölkənin etnik, dini, dil, mədəni müxtəlifliyinin qorunması durur. Bu siyasət ölkədəki inteqrasiya siyasətini möhkəmləndirir. Mərkəz Azərbaycanın multikulturalizm siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Multikulturalizm siyasəti həm daxili, həm xarici siyasətdə özünü açıq büruzə verir. BBMM ölkəmizin əhalisinə Azərbaycan multikulturalizmi siyasətinin əsaslarını çatdırır. Bu istiqamətdə mərkəzin layihələrindən biri də ali məktəblərdə tədris olunan "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləridir. Bu layihə 2015-ci ildən həyata keçirilir. Bu fənn seçmə fənn idi. Ötən 4 il ərzində onun əhəmiyyəti özünü büruzə verdi və qərara alındı ki, bu fənn məcburi fənn kimi tədris olunsun. Bu fənn gənclərdə Azərbaycanın multikulturalizm siyasəti, ölkəmizdə etnik-mədəni müxtəlifliyin qorunması istiqamətində aparılan işlər haqqında bilikləri artırır.

Təhsil nazirinin müavini Firudin Qurbanov deyib ki, Azərbaycanın qədim tarixi, zəngin mədəniyyəti var. Bu mədəniyyət qorunub saxlanılır və nəsildən-nəslə ötürülür. Azərbaycan xalqı digər mədəniyyətlərə, dinlərə hörmətlə yanaşıb. Bu, bizim qanımızdadır. Ölkəmizdə bu gün bir çox mədəniyyət nümunələri qorunub saxlanılır və onlara hörmətlə yanaşılır. Bu, Azərbaycan xalqının böyüklüyünü göstərir. Əcdadlarımız bu ənənəni qoruyub saxlayırlar.

Nazir müavini qeyd edib ki, Azərbaycanda multikulturalizm siyasəti dövlət siyasəti səviyyəsinə qaldırılıb. BBMM-in 8 ölkədə filialı fəaliyyət göstərir. Ölkəmizdə multikulturalizm fənninə böyük diqqət göstərilir. "Multikulturalizmə giriş" fənni bakalavr, "Azərbaycan multikulturalizmi" fənni isə magistr pilləsində bu ilin sentyabrından əsas fənn kimi tədris olunacaq.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, Dövlət Komitəsi ötən 5 ildə BBMM-lə yaxından əməkdaşlıq edib. Multikulturalizm Azərbaycan xalqının yüzilliklər ərzində yığdığı böyük mənəvi sərmayədir. Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində BBMM Azərbaycan həqiqətlərini, ölkəmizin imicinin daha da yaxşılaşdırılması baxımından önəmli bazaya çevrilib. Dövlətimizin başçısının uzaqgörən siyasəti nəticəsində mənəvi sərmayə cəmiyyətimizin, dövlətimizin milli təhlükəsizliyi baxımından da önəmli amilə çevrilib. BBMM-in fəaliyyəti, həmçinin Azərbaycan xalqının mənəvi zənginliyinin, Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasına kömək edir.

BBMM-in Himayəçilik Şurasının üzvü Aleksandr Şarovski, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Melih Yevdayev, Roma Katolik Kilsəsinin ordinarisi Vladimir Fekete Azərbaycandakı multikultural, tolerant mühitin üstünlüklərindən danışıblar. Onlar Azərbaycanın multikulturalizm siyasəti sahəsində əldə etdiyi uğurların dünya dövlətləri, ölkəmizə gələn qonaqlar tərəfindən də etiraf edildiyini və yüksək qiymətləndirildiyini bildiriblər. Azərbaycanda multikulturalizmin həyat tərzi olduğu, ölkəmizdə multikultural dəyərlərin, tolerantlıq ənənələrinin əsrlərə söykəndiyi qeyd edilib. Azərbaycanın multikultural dəyərlərinin dünyada tanıdılması baxımından BBMM-in fəaliyyəti yüksək qiymətləndirilib.

BBMM-in ABŞ nümayəndəliyinin rəhbəri Janna Skot multikulturalizmin etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrildiyini və bunun təqdirəlayiq olduğunu deyib. J.Skot BBMM-in fəaliyyətindən danışaraq bildirib ki, Mərkəzin sayəsində Azərbaycanda baş verən hadisələr, buradakı multikultural mühit barədə məlumat almaq mümkündür.

BBMM-in Moldova nümayəndəliyinin rəhbəri Aurelia Qriqoriu multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu qeyd edib. O deyib ki, indi dünya təhlükə ilə üzləşib, ekstremizm yaşanır. Bu siyasətin sonu yoxdur. Bu siyasətə alternativi Azərbaycan Prezidenti İlham Əliyev özünün uzaqgörən, müdrik siyasəti ilə göstərdi. Azərbaycan Prezidenti İlham Əliyev göstərdi ki, çıxış yolu multikulturalizm siyasətidir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir. Bu, bir fenomendir. Azərbaycanın 20 faiz torpaqları işğal altındadır, 1 milyondan çox qaçqın və məcburi köçkün var. Buna baxmayaraq Azərbaycan sülh, hörmət insanseverlik ab-havasını təmin edir. Azərbaycan dünyanın 5 ən tolerant ölkəsi siyahısındadır və dini tolerantlığın nümunəsi sayılır.

BBMM-in Almaniya nümayəndəliyinin rəhbəri Birgit Vaysgerber deyib ki, o, Azərbaycana olan sevgisini Almaniya xalqına aşılamaq istəyir. O, Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri ilə yaxından tanış olmaq imkanını əldə etdiyi üçün BBMM-ə təşəkkürünü bildirib.

Yubiley tədbiri bədii hissə ilə davam edib.

Tədbir çərçivəsində, həmçinin gənc rəssamların multikulturalizm mövzusuna həsr edilən rəsm əsərlərindən ibarət sərgi təşkil olunub.

**AZƏRTAC**

# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİNDƏ BEYNƏLXALQ KONFRANS

Gəncə Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilib. İlk öncə konfrans iştirakçıları Gəncə şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsini ziyarət edib, tər gül dəstələri qoyaraq, ulu öndərə sonsuz hörmət və ehtiramlarını bildiriblər. Universitetin 5-ci tədris korpusunda təşkil olunan konfransda ümummilli lider Heydər Əliyevin zəngin və çoxşaxəli siyasi fəaliyyətindən bəhs edən film izlənilib. Konfransı açıq elan edən **Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov** bildirib ki, bütün fəaliyyəti xalqa və ölkəmizin milli maraqlarına xidmətlə bağlı olan ulu öndərin hələ vəzifədə olduğu Sovet hakimiyyəti illərində respublikamızın elmi potensialının yüksəldilməsi üçün böyük işlər həyata keçirilib. Bunun üçün respublikamızda, eləcə də Gəncə şəhərində çoxsaylı ali və orta ixtisas təhsili müəssisələri, elmi-tədqiqat institutları fəaliyyətə başlayıb. O vurğulayıb ki, bir zamanlar ulu öndərin təşəbbüsü ilə Sovet İttifaqının ən qabaqcıl universitetlərində təhsil alan gənclər Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ölkəmizdə milli dövlətin qurulmasında kadr potensialının əsasını təşkil



edib, dövlətçilik işinə özlərinin ümumi töhfələrini veriblər. Niyazi Bayramov qeyd edib ki, dünya miqyaslı siyasətçi, işıqlı və parlaq şəxsiyyət olan Heydər Əliyevin əziz xatirəsi onun qurub yaratdığı Azərbaycanın hər bir guşəsində olduğu kimi, qədim elm və mədəniyyət mərkəzi olan Gəncə şəhərində də əziz tutulur.

Konfransda çıxış edən **Gəncə Dövlət Universitetinin rektoru, professor Yusif Yusibov** ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlığı istiqamətində görülmüş işlərdən ətraflı söhbət açıb.

Rektor bildirib ki, Azərbaycanın sonrakı inkişafını möhkəm təməllər üzərində quran, onun müstəqilliyini dönməz və sarsılmaz edən ulu öndərin xatirəsi Gəncə Dövlət Universitetinin kollektivi tərəfindən daim əziz tutulur. Hər il GDU-da dahi öndərin adı ilə bağlı olaraq çoxsaylı elmi-nəzəri, praktiki konfranslar, simpoziumlar, disputlar, sərgilər və xatirə gecələri təşkil olunur. Heydər Əliyevin 96 illik yubileyi münasibətilə GDU-da keçirilən beynəlxalq konfransın sayca altıncı olduğunu deyən Yusif Yusibov qeyd edib ki, bir neçə ölkədən çoxsaylı xarici qonaqların iştirakı onu göstərir ki, əvvəlki illərdə olduğu kimi bu il də konfransa böyük diqqət var. Konfransda 10-dan artıq ölkənin nüfuzlu universitetlərinin, qabaqcıl elmi-tədqiqat mərkəzlərinin görkəm-



li alimləri elmi məruzə ilə çıxış ediblər. İki gün davam edən konfrans beş istiqamətdə, on yeddi bölmədə fəaliyyət göstərib. Konfransın gedişində ayrı-ayrı bölmələrdə 600-dən çox elmi məruzələr dinlənilib.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Hər birimizin taleyində Heydər Əliyev dühasının zərrəsi var

**Azərbaycan xalqının böyük oğlu, çağdaş dövrümüzün dünya səviyyəli siyasi və ictimai xadimi dahi Heydər Əliyev bəşər tarixinin bizə bəxş etdiyi ən böyük şəxsiyyətlərdəndir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyub getdiyi dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşırlar. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun rəhbərliyi altında respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir.**





**Aydın QASIMOV,**
**Hüquq elmləri doktoru, professor.**

Fenomen şəxsiyyət, ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün mərhələlərində dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi ədalətli cəmiyyətin formalaşdırılması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması naminə misilsiz xidmətlər göstərmişdir. Ulu öndər ölkəmizə rəhbərliyə başladığı gündən ömrünün sonunadək bütün səy və bacarığını, istedadını, həyatını Azərbaycan Respublikasının inkişafına, iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə, mədəni və elmi sahədə çiçəklənməsinə, ölkəmizin dünyəvi, hüquqi və demokratik dövlətə çevrilməsinə həsr etmişdir. Bu dahi şəxsiyyətin ölkədə iqtisadiyyatın, sənayenin, ordu və dövlət quruculuğunun qanunvericilik bazasının, insan hüquq və azadlıqlarının qorunması sahəsində Avropa dəyərlərindən bəhrələnən demokratik təsisatların yaradılması və inkişafındakı xidmətləri milli və mənəvi dəyərlərə hörmət və ehtiramın, vətənə, millətə bağlılığın və sədaqətin bariz nümunəsidir.

Xalqların və millətlərin taleyində, formalaşmasında, dünyadakı yerinin müəyyənləşdirilməsində tarixi şəxsiyyətlərin, böyük siyasətçilərin və dövlət başçılarının müstəsna rolu danılmazdır. Bəşəriyyət nadir hallarda elə dühalar da yetişdirir ki, onlar bütöv bir salnamə, tarix yaradır, həm ölkə daxilində, həm də regionda və dünyada cərəyan edən prosesləri dövlətin və xalqın maraqlarının təmin olunmasına yönəltməyi, başlıcası isə tarixin gedişatını nizamlamağı bacarırlar. Bu böyük tarixi şəxsiyyətlərin hər biri ölkəsinin ən mürəkkəb, çətin məqamlarında siyasət meydanına atılmış, xalqını başının üstünü almış bütün bəlalardan hifz edərək qorumuş, öz həyatlarının mənasını yalnız millətinə xidmətdə görmüşlər. Heydər Əliyev fenomeninə, istedadına və şəxsiyyətinə dünyanın ən aparıcı ölkələrinin dövlət başçıları da çox yüksək qiymət vermişlər. İngiltərənin keçmiş baş naziri Marqaret Tetçerin qənaətinə görə Heydər Əliyev zəmanəmizin ən görkəmli siyasi xadimlərindən idi. Amerika sosioloqu, dövlət xadimi Zbiqnev Bjezinski Heydər Əliyevin uzaqgörənliyi, dərin məntiqə malik olmasını önə çəkərək deyirdi: "Heydər Əliyev Azərbaycanda demokratiyanın və fikir plüralizminin, yeni iqtisadi və siyasi münasibətlərin qarantıdır". Dünyanın görkəmli dövlət və ictimai xadimləri ümummilli liderimizi Corc Vaşinqton və Franklin Ruzveltlə, Şarl de Qolla və Mustafa Kamal Atatürklə bir sıraya qoyur, onu təkcə Azərbaycanın deyil, bütün türk dünyasının lideri kimi görürdülər.

Dünyanın ən məşhur dövlət xadimlərinin portretlərini çəkmiş görkəmli rəssam Nikos Safronov Heydər Əliyevin 80 illik yubileyi münasibətilə onun portretini ərsəyə gətirəndə demişdi ki, Heydər Əlirza oğlu Əliyev Tanrının yaratdığı möcüzədir, belə şəxsiyyətlər min ildə bir dəfə dünyaya gəlir.

Ulu öndər fenomenal yaddaşa, dərin təfəkkürə, sarsılmaz iradəyə malik idi. Heydər Əliyev orta məktəbi fərqlənmə diplomu ilə bitirmişdi. Onun müəllimi 100 yaşlı Lətif Hüseynzadənin sözlərinə görə Heydər Əliyev çox istedadlı və əlaçı tələbə kimi hamının diqqətini cəlb edirdi.

Tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır. Azərbaycanın 1970-ci illərdən başlayan inkişafı, uğurları və yüksəlişi ümummilli liderimiz, müdrik zəka sahibi Heydər Əliyevin adı ilə bağlıdır. Böyük rəhbərin hakimiyyətdə olduğu dövr Azərbaycan elminin, təhsilinin, səhiyyə və mədəniyyətinin, iqtisadiyyatının sürətli tərəqqisi ilə yadda qalmışdır. Bu illər milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, dünya azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması, gənclərimizin dövlətçiliyimizin tərəqqisi prosesinə cəlb edilməsi Heydər Əliyev strategiyasının uğuru kimi qeyd olunmalıdır. Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafındakı böyük xidmətləri özünü hələ sovet dövründə göstərirdi.

Azərbaycan əsrin sonunda Heydər Əliyevin sayəsində ən irimiqyaslı iqtisadi layihələrin mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya, sahəsində tərəqqiyə nail olunub. Ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir. Azərbaycan xalqı öz böyük oğluna həmişə xilaskar kimi baxmış, ən çətin məqamlarda məhz ona müraciət etmişdir. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ikinci dəfə respublika rəhbərliyinə qayıdan ulu öndər Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi. Qədirbilən xalqımız həmin günü özünün Qurtuluş Günü kimi qəbul edərək - iyunun 15-ni haqlı olaraq hər il ümumxalq bayramı kimi qeyd edir. Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi və uzaqgörənliyi sayəsində tezliklə ölkədə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Milli Ordumuzun döyüş qüdrətinin artırılması nəticəsində erməni faşistlərinin hücumlarının qarşısı alındı və ermənilər atəşkəs elan etməyə məcbur edildi. Heydər Əliyevin bilavasitə rəhbərliyi altında respublikamızda ictimai-siyasi sabitlik, iqtisadi dirçəliş əldə olundu, siyasi aləmdə dövlətimizin nüfuzu möhkəmləndi və müstəqilliyimiz dönməz xarakter aldı. Azərbaycan xalqı, tərəqqipərvər bəşəriyyət, bütün türk dünyası iyirminci əsrin görkəmli siyasətçilərindən və dahi şəxsiyyətlərindən biri olan Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, bütün dünyanın yüksək qiymətləndirdiyi siyasi xadim, dövlət rəhbəri və böyük mütəfəkkir idi. 1993-cü ilin iyununda ölkədə yaşanan ictimai-siyasi hadisələr təsdiqlədi ki, geniş siyasi dünyagörüşə malik lider Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmləndirmək və yaşatmaq kimi ağır missiyanın öhdəsindən uğurla gələ bilər. İyun ayının 9-da xalqın istəyi ilə Bakıya qayıdan ulu öndər təbiətin ona bəxş etdiyi fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək, xalqı vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil olmuşdur. Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında ulu öndər Heydər Əliyevə etimad göstərərək onu özünün rəhbəri seçmiş, müdrik liderinin rəhbərliyi altında davamlı və dönməz inkişaf yoluna çıxmışdır. 1993-cü ilin oktyabrın 10-da keçirilmiş andiçmə mərasimində **"Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm"** - deyən ümummilli lider müstəqil Azərbaycanın milli inkişaf strategiyasını özünəməxsus müdrikliklə irəli sürmüş və onun həyata keçirilməsinə nail olmuşdur. Ulu öndər cəmiyyətin bütün təbəqələrinin sosial və siyasi mənafelərini özündə ehtiva etməyə qadir, demokratikləşmə prosesinin fundamental prinsiplərinə əsaslanan, keçid dövrünün xarakterik keyfiyyətlərini nəzərə alan demokratik idarəetmə sistemini formalaşdırmaqla, əslində mükəmməl dövlət idarəçilik məktəbini yaratmışdır.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Heydər Əliyev vətən üçün, xalq üçün doğuldu, vətənin, xalqın tərəqqisi, inkişafı, azadlığı, müstəqilliyi üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqətli, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ulu öndər əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, Azərbaycanı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.

Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və belağətsiz deyə bilərik ki, bu tarixin ən şanslı səhifələrindəndir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir tarix məktəbini bitirmək deməkdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi onilliklər ərzində ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyevin quruculuq fəaliyyətinin silinməz izləri vardır.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması məqsədilə aparılan hüquqi islahatlar içərisində ən mühümü məhz yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu. Demokratik-hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını ciddi təhdid altında qoymuşdu. Ulu öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər, bütün bunlar isə demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

Milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması, Azərbaycanda hüquqi dövlət qurulması, demokratik sivilizasiyalı cəmiyyət yaranması, söz və vicdan azadlığının, plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması böyük siyasətçi Heydər Əliyevin həyata keçirdiyi strategiya nəticəsində gerçəkləşdi və dövlətin xalqa xidmət etdiyini əməli addımlarla təsdiqlədi. Bu yanaşma amalı və məramı yalnız insanlara xidmət etmək olan, müstəqilliyimizi qorumaqla xalqın azad, sərbəst yaşamaq hüququnu təmin edən ümummilli liderin millətinə, torpağına məhəbbətindən irəli gəlirdi. Buna görə də quruculuq, xilaskarlıq missiyasını müvəffəqiyyətlə yerinə yetirən dahi şəxsiyyət həyata keçirdiyi islahatların insanlara verə biləcəyi səmərə və xeyir barədə düşünür, sosial-iqtisadi problemlərin aradan qaldırılması yollarını arayırdı. Onun bu istiqamətdə insanlara, ölkə əhalisinə verdiyi dəyər, yaratdığı şərait nəticəsində əhalinin güzəranı yaxşılaşır, həyat səviyyəsi yüksəlirdi. Ulu öndər hər şeydən vacib olan mənəvi rahatlığın, sərbəst düşünmə imkanlarının, mətbuat, söz azadlığının təmin olunması istiqamətində də məqsədyönlü iş apararaq ölkədə tam demokratik şərait yaratdı. Onun tərəfindən cəmiyyət və dövlət həyatının bütün sahələrində olduğu kimi, hüquqi sahədə də köklü islahatlar aparıldı. Öz siyasətində həmişə humanizmə, insanpərvərliyə geniş yer verən Heydər Əliyev daim insan faktorunu önə çəkir, onun hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunub qorunmasını ən vacib məsələ hesab edirdi. Belə ki, əsl humanizmin təzahürü idi ki, minlərlə məhkum əfv edildi, onun təşəbbüsü ilə amnistiya aktları on minlərlə şəxsə şamil olundu.

Vətəndaş cəmiyyəti quruculuğu yönündə inamlı addımların atıldığı dövlətlərdə insan hüquq və azadlıqlarına maksimum təminat yaradan yeni Konstitusiyanın qəbulu qaçılmaz olur. Cəmiyyətdə siyasi sabitliyin, sülhün, ümumi razılığın təminatçısı kimi çıxış edən Konstitusiya, eyni zamanda dövlətin gələcək inkişaf prioritetlərini, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin sivil çərçivələrini müəyyənləşdirir. Əsas Qanun bütün hüquq sisteminə xas olan hüquqi tənzimləmə funksiyasını yerinə yetirməklə yanaşı, sosial, siyasi, humanist missiyanı da həyata keçirir. Dövlət quruluşunun təməl prinsiplərini müəyyənləşdirən Konstitusiya həm də cəmiyyət həyatının başlıca sahələrinə dövlət müdaxiləsinin meyarlarını, yol verilən həddini dəqiqləşdirir, bu sahədəki dövlət siyasətinin ümumi istiqamətlərini təsbit edir. Bütün bu və ya digər xüsusiyyətləri ilə konstitusiyalar hər bir xalqın və dövlətin həyatında xüsusi rola malikdir.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra ilk dəfə 1993-cü ilin oktyabrında yeni Konstitusiyanın hazırlanması üçün təşəbbüs göstərilsə də, ölkədə siyasi sabitliyin mövcud olmaması, sosial gərginlik, zorakı dövlət çevrilişi cəhdləri, həmçinin qarşıya çıxan bir sıra təxirəsalınmaz vəzifələr bu təşəbbüsün reallaşmasını ləngitmişdir. Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və genişmiqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə həllinə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən biri olmuşdur.

Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salanların çox təhlükəli təhdidləri ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlər göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Xalqımızın öz ümummilli lideri Heydər Əliyevi qətiyyətlə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirmək ənənəsinə birdəfəlik son qoyuldu. 1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, genişmiqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı. Ulu öndər əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın - Əsas Qanunun rolu qat-qat artır. Beləliklə, ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində dövlətçiliyə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan və ölkədə Əsas Qanunun qəbuluna imkan verən zəruri şərait, siyasi sabitlik formalaşdıqdan sonra Milli Məclisin iclasında ölkə Prezidentinin sədrliyi ilə Konstitusiya layihəsinin hazırlanmasına məsul olan xüsusi komissiya yaradıldı. Görkəmli alimlərin, hüquqşünasların, mütəxəssislərin və rəhbər işçilərin daxil edildiyi bu komissiya 1995-ci il iyul ayının 5-də ilk iclasını keçirdi.

Komissiyanın iclasında geniş nitq söyləyən ümummilli lider Heydər Əliyev dəyərli tövsiyələrini, məsləhətlərini vermişdir. **"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, ali qanunvericilik, icra və məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır"** - deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında həm Azərbaycanın tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Nəhayət, 1995-ci il noyabrın 12-də Azərbaycan tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konsitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Qeyd olunduğu kimi, 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası cəza qanunvericiliyindən çıxarılmış və ekvivalent cəza olan ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Dövlət başçısının 3 fevral 1998-ci tarixli müraciətində deyilirdi: **"Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".** Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olduğunu bir daha sübut etdi.

Bütün varlığı ilə Vətənə və xalqa bağlı olan böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyev öz həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın xoşbəxt gələcəyinə, onun inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etmişdir. Azərbaycanın bugünkü sürətli və irimiqyaslı inkişafının təməlini Heydər Əliyev yaradıb. Biz bu gün onun yaratdığı fundamental təməl üzərində ucalır, dünyanın inkişaf etmiş ölkələri sırasına çıxırıq.

Ümummilli liderimiz Heydər Əliyevin xalqımız qarşısında ən böyük və tarixi xidmətlərindən biri də ondan ibarətdir ki, o, sürətli inkişaf yoluna qədəm qoymuş Azərbaycanı cəsarətlə idarə etməyə qadir olan layiqli davamçı hazırlamışdır. Ölkə Prezidenti tərəfindən həyata keçirilən məqsədyönlü daxili və xarici siyasət nəticəsində ölkəmizdə demokratik inkişaf və tərəqqi, sağlam vətəndaş cəmiyyətinin yaradılması, hüquqi dövlətin formalaşması prosesləri dönməz xarakter almış və görülmüş, eləcə də görüləcək bütün nəhəng və qlobal işlər ancaq bir məqsədə - Azərbaycanın dövlət müstəqilliyinin daha da gücləndirilməsinə xidmət etməklə, ulu öndərin təbirincə desək, onu, sözün əsl mənasında, əbədi və daimi etmişdir.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və banisi Heydər Əliyev müəllifi olduğu ənənələrin davamlılığını təmin etdi, böyük uzaqgörənliklə ölkəmizin gələcək uğurlarına təminat yaratdı. Ümummilli liderimizin 2003-cü ilin prezident seçkiləri ərəfəsində: **"Mən ona özüm qədər inanıram"** - deməklə özünün layiqli davamçısı kimi cəmiyyətə təqdim etdiyi cənab İlham Əliyevin respublikaya rəhbərliyi dövründə əldə olunmuş böyük nailiyyətlər Azərbaycan xalqının seçimində qətiyyən yanılmadığını bir daha təsdiqləyir. Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsindən bəhrələnən cənab İlham Əliyev ulu öndərimizin möhkəm təməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini uğurla yaşadır. Bu gün Azərbaycan Prezidentinin rəhbərliyi ilə görülən işlər, əldə olunan uğurlu nəticələr hələ ötən əsrin 90-cı illərinin ortalarından ulu öndərimiz Heydər Əliyev tərəfindən başlanılmış çoxşaxəli islahatlar kursunun məntiqi davamıdır.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan uzunmüddətli inkişaf strategiyasının son 16 ildə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşması öz bəhrələrini verir. Dövlət başçısının müəyyənləşdirdiyi inkişaf yolu davamlı tərəqqini təmin etməyə yönəlmişdir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzvlüyü və beynəlxalq təşkilatların tədbirlərində fəal iştirakı da bu strategiyanın bir hissəsidir.

Yüksək təfəkkür, zəngin dövlətçilik və idarəçilik təcrübəsi qazanmış, müasir düşüncəli, praqmatik lider İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inamla irəliləyir. Zəngin dövlətçilik məktəbindən dərs alan, təcrübəli diplomat Azərbaycan Prezidenti cənab İlham Əliyev dünyada ən islahatçı dövlət başçılarından biri kimi qəbul edilir. Sevindirici haldır ki, ümummilli liderimizin siyasi xətti bu gün Prezident İlham Əliyev tərəfindən qloballaşan dünyanın tələbinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Dövlət başçısı ötən 16 ildə Azərbaycanın müasir dövlətə çevrilməsini və tam müstəqil siyasət yürütməsini milli strategiyasının başlıca hədəfi kimi müəyyənləşdirib. İqtisadi müstəqilliyə xüsusi diqqətin ayrılması da əsaslı yanaşma olaraq dövlət müstəqilliyinin iqtisadi bazisini möhkəmlətmək, cəmiyyətin davamlı inkişafı üçün zəmin hazırlamaq məqsədindən irəli gəlib.

**"Hər bir məmur xalqının xidmətçisi olmalıdır",** - deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən cənab İlham Əliyev hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkir, bu məqama mühüm önəm verir.

Azərbaycan Prezidenti ötən illərdə ölkəmizi müasir və qüdrətli dövlətə çevirmək məqsədini bəyanatlarla ifadə etməyib, qarşıya qoyduğu vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi üçün konkret icra mexanizmlərini müəyyənləşdirib. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və "Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi" kimi konseptual əhəmiyyətli sənədlər qəbul edilib. Azərbaycanın uzunmüddətli inkişaf strategiyası dərin elmi proqnozlar əsasında hazırlanıb. Həyata keçirilən tədbirlər öz bəhrəsini verib. Azərbaycanın investisiya cəlbediciliyi, makroiqtisadi sabitliyi qorunub saxlanılıb, qlobal infrastruktur layihələrinin reallaşdırılması və digər mühüm istiqamətlərdə müsbət göstəricilərə nail olunub, iqtisadiyyatın bütün funksional sahələri üzrə optimal nəticələr əldə edilib. Bütün bunlarla yanaşı, regionların sosial-iqtisadi inkişafına, biznes mühitinin cəlbediciliyinə istiqamətlənən dövlət siyasətinin davam etdirilməsi istər Ümumi Daxili Məhsulun, istərsə də strateji valyuta ehtiyatlarının artımına əlverişli şərait yaradıb.

**"Mən hər bir azərbaycanlının Prezidenti olacağam",** - deyən İlham Əliyev öz fəaliyyətində bu vədinə sadiqliyini dəfələrlə əməli işi ilə sübuta yetirmişdir. Xalqın firavanlığına, yüksək sosial rifahına çalışan dövlət rəhbəri ən çətin və qayğılı günlərdə də vətəndaşların yanında olmuş, onlara diqqət və qayğısını, köməyini, mənəvi dəstəyini əsirgəməmişdir. Xalqla birbaşa təmasa üstünlük verərək yerlərdə sıravi vətəndaşlarla görüşmüş, onlarla səmimi söhbətləşərək problemlərinin həlli istiqamətində çevik qərarlar qəbul etmişdir. Cənab İlham Əliyevin xaraktercə sadə və səmimi, praktik siyasətçi olması onun sıravi vətəndaşlarla təmaslarında bir daha üzə çıxmışdır. Dövlət başçısı müdrik rəhbərlərə xas qabiliyyətlə hər kəslə dil tapmağa, dövlət məmurları ilə sadə vətəndaşlar arasındakı psixoloji səddi aradan götürməyə nail olmuşdur. Bütün bunlar dövlət rəhbərinə xalqın dərin rəğbətini, inamını qazandırmış, böyük layihələri qısa zamanda gerçəkləşdirmək imkanı yaratmış, ulu öndər Heydər Əliyevin həyata keçməmiş arzularını praktik şəkildə gerçəkləşdirməklə, xalqa rəhbərlik missiyasının öhdəsindən layiqincə gəlmişdir.

Göründüyü kimi, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dinamik inkişaf yolunu davam etdirir, regionda söz sahibi olan ölkəmizin dünyada da nüfuzu getdikcə güclənir. Ötən 16 ildən artıq dövrdə əldə olunan uğurlar, başqa sözlə, dövlət başçısının "Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək" strateji xəttinin müsbət nəticələri respublikamızın qarşıdakı illərdə də dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır, yeni iqtisadi şəraitdə sistemli islahatların reallaşdırılmasını sürətləndirir. Əminliklə demək olar ki, Azərbaycan xalqını xoşbəxt gələcəyə aparan bu siyasət uğurla davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi ilə daha möhtəşəm inkişaf zirvələrini fəth edəcəkdir.

Heydər Əliyev qürur hissi ilə deyərdi: **"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!..".**

Bu gün Azərbaycan xalqı fəxr edir ki, onun Heydər Əliyev kimi bir övladı olmuşdur. Qəlbi həmişə Azərbaycanla döyünən Heydər Əliyevin parlaq xatirəsi daim anılacaq və ehtiramla yad ediləcəkdir. Biz də hər birimiz ulu öndərə məhəbbətimizin əyani təzahürü olaraq möhtərəm Prezidentimizin ətrafında daha sıx birləşərək onun qarşıya qoyduğu bütün mühüm vəzifələrin yerinə yetirilməsində fəal iştirak etməli və Heydər Əliyevin şah əsəri olan demokratik, müasir və müstəqil Azərbaycanımızın xoşbəxt gələcəyi naminə səylə çalışmalıyıq. Müstəqil Azərbaycan dövlətinin keçirdiyi ağır sınaq illərində, dövlətçiliyimizin ən çətin günlərində Heydər Əliyev göstərdiyi qətiyyətlə bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Heydər Əliyev fövqəlbəşər bir düha kimi xalqın əbədi məhəbbətini qazandı. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev ürəklərdə özünə heykəl ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideallarını öz yolunda mayaka çevirəcəkdir. Heydər Əliyev irsi hələ uzun illər xalqımızın müstəqillik yolunu işıqlandıracaq.

Bu gün biz hamımız Azərbaycan xalqının və dövlətçiliyinin xilaskarı və yaradıcısı olan Heydər Əliyev irsinə daim sədaqətliyik və bundan sonra da belə olacağıq. Azərbaycan xalqının dahi oğlunun pak əməlləri, müqəddəs ideyaları, arzuları nə qədər ki Azərbaycan var, Azərbaycan xalqı var daim yaşayacaqdır. Heydər Əliyev adı əbədi olaraq Azərbaycanın adı ilə yanaşı olacaqdır. ■

**Heydər Əliyev bəşər tarixinin nadir şəxsiyyətlərindəndir ki, onun özündən sonra qoyub getdiyi ideyaları nəinki doğma məmləkətimizə, o cümlədən Azərbaycanla dünya ölkələrinin dostluq yollarına işıq və nur saçır. Bu baxımdan ulu öndərin xalqımız və dövlətimiz naminə apardığı müdrik və uzaqgörən siyasəti Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Heç də təsadüfi deyil ki, Ukraynanın bir çox ictimai, siyasi xadimləri ulu öndər Heydər Əliyevi Azərbaycanla Ukrayna dostluğunun memarı və qurucusu kimi qiymətləndirirlər. Dahi öndərin SSRİ Nazirlər Kabinetinin sədr müavini işlədiyi dövrlərdə Ukrayna və Ukrayna xalqı qarşısındakı əvəzsiz xidmətləri, o illərdə Ukraynada bir sıra iri sənaye müəssisələrinin, fabrik, zavod, mədəniyyət və idman komplekslərinin tikintisinə yardımçı olması, xüsusən də Çernobıl faciəsinin fəsadlarının aradan qaldırılmasında onun göstərdiyi tarixi şücaət Ukrayna xalqı tərəfindən bu gün də böyük minnətdarlıq hissi ilə xatırlanır.**

Ölkələrimiz müstəqillik əldə etdikdən sonra da Heydər Əliyev Azərbaycanla Ukrayna arasındakı tarixi dostluq əlaqələrinin möhkəm əsaslar üzərində qurulmasında üzərinə düşən tarixi missiyanı böyük ustalıqla yerinə yetirib. Məhz bu gün Azərbaycanla Ukraynanın beynəlxalq arenada strateji müttəfiqlər kimi tanınması, ölkələrimizin GUAM regional təşkilatı çərçivəsində sıx əməkdaşlıq etməsi birbaşa ulu öndərin adı ilə bağlıdır. O zaman həyata keçirilən müdrik siyasət nəticəsində ölkələrimiz arasında davamlı və yüksək səviyyədə iqtisadi, siyasi, elmi mədəni əməkdaşlıq münasibətləri qurulub.



# Heydər Əliyev Azərbaycan - Ukrayna dostluğunun memarıdır

1997-ci ildə ulu öndər Heydər Əliyevin Ukraynaya ilk rəsmi səfəri xalqlarımız arasındakı tarixi dostluq əlaqələrinin möhkəm əsaslar üzərində qurulmasında müstəsna rol oynayıb. Səfər çərçivəsində Heydər Əliyevlə Ukraynanın keçmiş dövlət başçısı Leonid Kuçma arasında keçirilən tarixi görüş ölkələrimiz arasındakı iqtisadi, siyasi əlaqələrin yeni inkişaf mərhələsinə qədəm qoymasında mühüm əhəmiyyət kəsb edib. Əsasən də Azərbaycanla Ukrayna arasında neft-qaz sahəsində əməkdaşlıq haqqında memorandumun imzalanması gənc və müstəqil dövlətlərimizin gələcək strateji əməkdaşlığının hüquqi bazasına çevrilib. O zaman ümummilli liderə Ukraynanın ali mükafatı olan “Yaroslav Mudrı” ordeninin və Kiyev şəhərinin fəxri vətəndaşı adının verilməsi birmənalı olaraq dahilik və müdrikliyə verilən qiymətin bariz nümunəsi kimi dəyərləndirilir.

Ötən dövr ərzində iqtisadi inkişaf qüdrətinə görə Cənubi Qafqazın lider dövlətinə çevrilən Azərbaycan beynəlxalq arenada mövqelərini gücləndirmək, milli dövlətçilik maraqlarını təmin etmək və dünyadakı etibarlı tərəfdaşları ilə əlaqələrini genişləndirmək istiqamətində böyük nailiyyətlər əldə edib. Bu mənada, inamla demək olar ki, Azərbaycanla Ukrayna arasında diplomatik əlaqələr durmadan inkişaf edərək, strateji müttəfiqlik zirvəsinə yüksəlib. Ölkələrimiz beynəlxalq forum və sammitlərdə eyni mövqedən çıxış edərək, prinsipal məsələlərdə bir-birinə dəstək verirlər. Fərəhləndirici haldır ki, Azərbaycanla Ukrayna arasındakı mehriban dostluq münasibətləri səmimiyyət üzərində qurulub. Çətin məqamlarda hər iki ölkə bir-birinə dayaq olmaq prinsipini bu gün də böyük əzmlə qoruyub saxlayır. Ukraynanın keçmiş prezidenti Leonid Kuçma dəfələrlə minnətdarlıq hissi ilə qeyd edib ki, bu ənənələrin əsasını Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev qoyub: “Ukraynanın ən ağır illərində Heydər Əliyev ölkəmizə əsl dost və qardaş dəstəyini verib, 1990-cı illərdə məhsul yığımı zamanı Ukrayna yanacaq böhranı ilə üzləşəndə yaxın dost və məsləkdaşımız kimi bizə əsl dost yardımını dahi Heydər Əliyev və Azərbaycan xalqı edib. Biz münasibətlərimizin müxtəlif dövrlərini, ölkələrimizin yaşadığı çətin anlarını heç zaman unutmuruq. Dostlar həmişə çətin anlarda tanınır. Bu baxımdan Ukraynanın çətin və mürəkkəb vəziyyətlə üzləşdiyi bir zamanda Heydər Əliyev Ukraynaya təmənnasız yardım göstərməklə xalqımıza arxa-dayaq olub. O, Azərbaycanın müharibə şəraitində olmasına baxmayaraq, Ukraynanı məhsul yığımını həyata keçirmək üçün yanacaqla təmin etdi. Bu o zaman Ukraynanın energetikasını və kənd təsərrüfatını xilas etmək demək idi. Bu yaxşılıq əlbəttə ki, Ukrayna xalqı tərəfindən heç zaman unudulmayacaq. “Cənab Kuçmanın dahi öndərimizlə bağlı söylədiyi səmimi fikirləri bu gün Ukraynanın istənilən dövlət və hökumət rəsmilərinin dilindən eşitmək olur.

Məhz ulu öndər Heydər Əliyevin Kiyev şəhərinin mərkəzində abidəsinin ucaldılması, onun adına istirahət parkının salınması, Ukraynanın ali təhsil ocaqlarından birinə Heydər Əliyevin adının verilməsi heç də təsadüfi deyil. Bu adlar uzun illər dahi bir şəxsiyyətin zaman-zaman bir xalqın qəlbində özünə ucaltdığı əbədi sevginin bariz nümunəsidir.

Vaxtilə ulu öndər Heydər Əliyev Azərbaycanla Ukrayna arasında iqtisadiyyat, ticarət, mədəniyyət, elm, təhsil və humanitar sahələrdə hüquqi bazanın yaradılmasını və əlaqələrin tənzimlənməsini möhkəm əsaslar üzərində qurub. Bu məqsədlə, təkcə 1994-1997-ci illərdə ölkələrimiz arasında 30-dək müqavilə, saziş və protokollar imzalanmış, görülmüş işlər nəticəsində Ukrayna ilə əlaqələrin miqyası xeyli genişlənmişdir. Sevindirici haldır ki, bu gün Azərbaycanla Ukrayna arasındakı dostluq münasibətləri möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə Ukraynaya etdiyi rəsmi səfərləri ikitərəfli dostluq münasibətlərinin inkişafına əsaslı təkan verib. Azərbaycanla Ukrayna arasında bir çox istiqamətlərlə yanaşı energetika sahəsində imzalanmış müqavilələr qarşılıqlı münasibətlərin inkişafına səmərəli töhfələr verib. Həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, ötən il Kiyev şəhərinin mərkəzində, Müslüm Maqomayevin adına istirahət parkı salınıb və orada onun abidəsi ucaldılıb. Yaxın gələcəkdə isə paytaxtın digər mərkəzi parklarından birində Azərbaycanın dahi şairi İmadəddin Nəsiminin abidəsi ucaldılacaq.

Hər iki ölkənin beynəlxalq arenada qarşılıqlı dəstəyə əsaslanan fəaliyyəti də kifayət qədər yüksək səviyyədə qurulub. Ukrayna Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını dəfələrlə bəyan edib və bu fikrində sonadək israrlı qalacağını bildirib. Azərbaycanda beynəlxalq müstəvidə daima dost ölkənin ərazi bütövlüyünə dəstək verməklə, qarşılıqlı münasibətlərin qorunub saxlanılması inkişaf etdirilir.

Fərəhləndirici haldır ki, bu gün Azərbaycanla Ukrayna arasındakı əlaqələr bütün sahələrdə inkişaf edir. Möhkəm təməl üzərində qurulan ikitərəfli münasibətlər birmənalı olaraq mehriban dostluğa və səmimiyyətə söykənir. Təbii ki, müstəqillik tarixlərini qoşa addımlayan Azərbaycanla Ukrayna dostluğunun durmadan inkişaf etməsinin kökündə müdrik düşüncənin məntiqi dayanır. O müdrik düşüncə ki onun memarı və müəllifi dahi Heydər Əliyevdir.

**Elşən VƏLİYEV,**
**Azərbaycanın Ukraynanın Poltava şəhərindəki fəxri konsulu.**

# Məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi insan amilinin yüksəlişinə xidmət edir

**Müasir dünyamızda getdikcə güclənən inkişaf prosesləri indi zamanın çağırışlarına münasibətdə daha həssas olmağı təlqin edir. Tarix boyu dövrün çağırışlarını nəzərə alan, yaranmış yeni imkanlardan yetərincə faydalanmağı bacaran cəmiyyətlər həmişə irəli gedərək tərəqqi tapmışlar. Böyük toplumlara bu imkanları göstərmək, onları vahid ideyalar ətrafında səfərbər edərək gələcək hədəflərə doğru istiqamətləndirməksə, bu çətin və şərəfli yolun önündə gedən liderlərin missiyasıdır.**

Böyük lider, ideal insan obrazı Azərbaycan xalqının milli dünyagörüşündə həmişə özünəməxsus yer tutmuşdur. Xaqani, Nizami, Füzuli, Nəsimi kimi dühalarımız öz əsərlərindəki adil hökmdar surətləri şəxsində belə obrazların parlaq nümunələrini yaratmışlar. Bu obraz milli dövlətçilik tariximizin ən müxtəlif dövrlərində yaşamış böyük tarixi şəxsiyyətlərimizin timsalında real həyatda da öz ifadəsini tapmışdır.

Xalqımızın ötən əsrdə yetişdirdiyi ən böyük şəxsiyyət olan Heydər Əliyev siyasi fəaliyyətinin bütün mərhələlərində vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi ilə, qurub-yaratmaq amalı ilə yaşamış, hər zaman milli ideallara bağlı olmuşdur. Anadan olmasının 96-cı ildönümünü qeyd etdiyimiz ümummilli lider bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən çətin məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, təbiətin bəxş etdiyi bir çox fitri keyfiyyətlər sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyən edə bilmişdir. Heydər Əliyev dühası milli tarix üçün böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi tutmuş, özünün siyasi bacarığı sayəsində Azərbaycanı vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi böhrandan xilas etmiş, xalqının qəlbində sabaha inam hissi yaratmağı bacarmışdır.

Ümummilli lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə böyük təzyiqlərlə üzləşsə də, heç bir riskdən çəkinməyərək əzmkar fəaliyyəti ilə xalqda tarixi keçmişi, milli kimliyi, dili, mədəniyyəti, milli adət-ənənələri və düşüncə sistemi barədə dolğun təsəvvürlər formalaşdıra bilmişdir. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndər Heydər Əliyevin sovet siyasi arenasında rəhbərliyə gəlməsi bütün maneələri dəf edərək müstəqil düşüncəyə yol açmışdır. Hələ ötən əsrin 70-80-ci illərində ulu öndər sanki Azərbaycanın müstəqil dövlət olacağını görmüş, buna zəruri zəmin formalaşdırmaq üçün uzaqgörənliklə fəaliyyət göstərmişdir.

Ulu öndər Heydər Əliyev ideoloji baryerlərin son dərəcə sərtliklə işə düşdüyü bir zamanda Azərbaycanın müstəqilliyi üçün iqtisadi-siyasi zəmin formalaşdırmağa çalışmış, milli ruhun yüksəlməsinə xidmət edən davamlı addımlar atmışdır. Heydər Əliyevin o dövrdə repressiya qurbanlarına bəraətin verilməsi istiqamətində gördüyü işlər də azərbaycançılıq məfkurəsinin güclənməsinə xidmət etmişdir. Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın korifey şəxsiyyətlərinin adlarını əbədiləşdirməklə, əsərlərinin təkrar nəşrini təşkil etməklə, heykəllərini ucaltmaqla, muzeylərini yaratmaqla xalqın tarixini, mədəniyyətini, ədəbiyyatını yaşatmaq, bütövlükdə isə milli yaddaşın qorunub gələcək nəsillərə çatdırmaq məqsədini güdmüşdür. Ümummilli lider 60-cı illərdə milli düşüncə sahibi olduqlarına görə təqibə məruz qalmış görkəmli Azərbaycan yazıçı və şairlərini, tarixçilərini məhv olmaq təhlükəsindən hifz etmişdir.

Yunan filosofu Platon məhz yazırdı ki, “Ədalətlə idarə olunan cəmiyyətdə yaxşı vətəndaş olmaq asandır”. Ulu öndər Heydər Əliyev də ədalət meyarını bütün ölçü və qəliblərin, ideoloji prinsiplərin fövqündə saxlayırdı. Heydər Əliyevin yaratdığı spesifik idarəçilik sisteminin üstün cəhətlərindən biri də məhz kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması - daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual səviyyəsi və yüksək bilik səviyyəsi ilə fərqlənən mütəxəssislərə üstünlük verilməsi idi. Azərbaycana birinci rəhbərliyi dövründə ümummilli lider təhsil sistemində özünü qabarıq göstərən neqativ tendensiyalara qarşı amansız mübarizəyə qalxmış, imkansızların, zəhmətkeş övladlarının o zamankı Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmasına imkan yaradan şəffaf mühitin formalaşdırılmasına nail olmuşdu. Bu gün adlı-sanlı hüquqşünasların böyük əksəriyyəti ulu öndərin bu addımını böyük ehtiram və rəğbətlə xatırlayırlar.

Fransız mütəfəkkiri Ş.Mönteskyenin fikridir - liderlik lazımi anda cəsarət nümayiş etdirmək bacarığıdır. Tarixi təcrübə göstərir ki, yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli tarixin sərt sınaqları qarşısında duruş gətirərək milli inkişafın əsasına çevrilir. Hər bir müstəqil dövlətin yaranmasına, möhkəmləndirilməsinə və qorunub saxlanılmasına doğru uzanan mürəkkəb ictimai-siyasi proseslərin mərkəzində də məhz lider və şəxsiyyət amili dayanır. Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi prinsiplər əsasında müəyyənləşdirmişdir.

Dövlət müstəqilliyinin ilk illərində hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda ciddi sınaqlarla üzləşən Azərbaycan Respublikası məhz ulu öndər Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi islahatlar nəticəsində cəmiyyətin təkamül sistemini, dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsini və təkmilləşdirilməsini davamlı prosesə çevirmişdir. Ötən 25 ildə respublikanın demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində yüksək nailiyyətlər qazanması da bilavasitə mülki cəmiyyət quruculuğuna hesablanmış ədliyyə və məhkəmə-hüquq islahatlarının respublikanın sosial-iqtisadi inkişaf dinamikası ilə uzlaşdırılması nəticəsində mümkün olmuşdur. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur.

Konstitusiyanın qəbulundan sonra respublikada ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən məhkəmə-hüquq islahatları həyata keçirilmiş, bu məqsədlə zəruri qanunvericilik bazası formalaşdırılmışdır. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq insan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilmiş, respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşulmuş, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyulmuşdur. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edilmiş, əfv və amnistiya aktlarının geniş tətbiqinə başlanılmışdır.

Aparılan məhkəmə-hüquq islahatı nəticəsində Konstitusiya Məhkəməsi təsis olunmuş, 2000-ci ildən yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən və insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlamışdır. Həmin vaxtdan etibarən keçmiş sovet respublikaları arasında, demək olar ki, ilk dəfə Azərbaycanda həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilmişdir. Həmçinin, məhkəmələr üzərində prokurorluq və ədliyyə orqanlarının nəzarəti ləğv olunmuş, demokratik məhkəmə nəzarəti institutu formalaşdırılmışdır.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə imtahanla seçilmiş, nəticədə hakim korpusunun 60 faizi təzələnmişdir. Ümummilli lider Heydər Əliyev sonrakı mərhələdə də ölkə həyatının bütün sahələrində çevik və işlək mexanizmlər üzərində çoxşaxəli islahatları təmin etmişdir. Hüquqa və ədalətə söykənən mülki cəmiyyətin formalaşdırılması üçün, ilk növbədə, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması prosesi davam etdirilmişdir.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçını yetişdirməsindədir. Ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə son 15 ildə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla davam etdirilmişdir. Bunun nəticəsidir ki, hazırda respublikada ədalət mühakiməsi hakimlərin müstəqilliyi təmin edilməklə, heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən, qərəzsiz, ədalətlə və qanunlara uyğun həyata keçirilir. Məhkəmələrin işinin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə 2004-cü ilin dekabrında “Məhkəmə-Hüquq Şurası haqqında” yeni qanun qəbul olunmuş, “Məhkəmələr və hakimlər haqqında” Qanuna bir sıra mütərəqqi dəyişikliklər edilmişdir.

Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Fərmanı keyfiyyətcə yeni mərhələdə ölkəmizdə çoxşaxəli hüquq islahatları üçün baza rolunu oynamışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn bu mühüm fərman əsasında regionlarda yeni apelyasiya və inzibati-iqtisadi məhkəmələr yaradılmışdır.

Həmin fərmanın davamı kimi ölkə başçısının 17 avqust 2006-cı il tarixdə imzaladığı “Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında” fərman hakimlərin sayının 157 ştat artırılmasını nəzərdə tutmaqla, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət etmişdir. Bu addımlar sonrakı illərdə də davam etdirilmiş, respublika üzrə hakimlərin sayı 2 dəfədən çox artırılaraq 600 nəfər müəyyən edilmişdir.

Hakimlərin seçimi prosesi Hakimlərin Seçki Komitəsi tərəfindən test üsulu ilə, tamamilə obyektiv, şəffaf və demokratik şəraitdə həyata keçirilmişdir. Son illərdə ümumilikdə 400-dək hakimliyə namizəd test üsulunda uğur qazanaraq bu vəzifəyə təyin olunmuşlar. Bu prosesin beynəlxalq norma və standartlara tam cavab verdiyi, ədalətli və şəffaf mexanizmlər əsasında reallaşdırıldığı Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunmuş, Azərbaycan təcrübəsi digər ölkələrə nümunə kimi göstərilmişdir.

Məhkəmə-Hüquq Şurasının rəhbərliyi altında son illər hakimlərin fəaliyyətinin qiymətləndirilməsinin daha şəffaf, obyektiv, çevik mexanizmlərinin müəyyənləşdirilməsi ədalət mühakiməsinin səmərəliliyini və keyfiyyətini artırır. Obyektiv və ədalətli qiymətləndirmələr və təyinatlar nəticəsində cəmiyyətin məhkəmələrə olan inamı daha da möhkəmlənir, ölkəmizin beynəlxalq imici yüksəlir. Ötən illərdə hakimlərin maddi təminatının yaxşılaşdırılması məsələsi də diqqət mərkəzində saxlanılmış, 2000-ci illə müqayisədə onların əməkhaqqı orta hesabla 30 dəfə artırılmış, bütün məhkəmə aparatlarının tərkibi yenidən müəyyən olunmuşdur.

Ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına yeni nəfəs verən və əhəmiyyətli sayıla biləcək hadisələrdən biri də 27 dekabr 2011-ci il tarixdə “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının təsdiq edilməsi haqqında” sərəncamın imzalanması olmuşdur. Sərəncam məhkəmə-hüquq islahatlarının sürətli və keyfiyyətli həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, həmçinin normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşımışdır.

2014-cü ildə Dünya Bankı və Azərbaycan Hökuməti arasında “Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu” adlı yeni layihənin imzalanması mərasimi keçirilmişdir. Layihənin keçirilməsində məqsəd məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə sisteminin yaradılması, ədalət mühakiməsinin həyata keçirilməsinin sürətləndirilməsi, elektron hüquqi xidmətlərin genişləndirilməsi ilə ədliyyə sisteminə dair vətəndaşların məmnunluğunun artırılmasını təmin etməkdir.

Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 13 fevral tarixli “Elektron məhkəmə” informasiya sisteminin yaradılması haqqında” sərəncamı da bu baxımdan mühüm əhəmiyyətə malikdir. Yeni sistemin yaradılmasında məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, vətəndaş hüquq və azadlıqlarının səmərəli müdafiəsidir. Bu günlərdə Ədliyyə Nazirliyi tərəfindən Sabunçu Məhkəmə Kompleksində “Elektron məhkəmə” sisteminin vətəndaş cəmiyyəti üçün təqdimatı keçirilmiş, sistemin əhəmiyyəti xüsusi vurğulanmışdır. Bildirilmişdir ki, yeni sistem vətəndaşların məhkəmələrlə münasibətlərinin daha çevik və işlək mexanizmlər əsasında qurulmasına, süründürməçilik hallarının aradan qaldırılmasına, işlərə baxılmasında qanunvericiliyin tələblərinə tam riayət olunmasına imkan yaratmış, operativliyi və şəffaflığı maksimum dərəcədə təmin etmişdir.

İnsan hüquq və azadlıqlarının təminatı sahəsində həyata keçirdiyi ardıcıl islahatlarla demokratik idarəetmə prinsiplərinə sadiqlik nümayiş etdirən Azərbaycan bu siyasətin mühüm tərkib hissəsi kimi ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi və cəza siyasətinin humanistləşdirilməsi məsələlərinə də ciddiliklə yanaşır. Respublikamızın iqtisadi inkişaf dinamikasına adekvat şəkildə gerçəkləşdirilən bu islahatlar liberal mahiyyəti ilə insan amilinin cəmiyyətdə ali meyar kimi qəbulunu şərtləndirmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncamı keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının səmərəliliyinin daha da yüksəldilməsinə xidmət edir. Dövlətimizin başçısının humanizmin təntənəsinə xidmət edən bu sərəncamı ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu mütərəqqi ədliyyə və məhkəmə-hüquq islahatlarının uğurlu davamı kimi cəmiyyətdə yüksək qiymətləndirilmişdir.

Xüsusi vurğulamaq lazımdr ki, 2018-ci ilin 11 aprel seçkilərində növbəti dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyev son bir ildə dövlət idarəçilik sisteminin əsaslı dərəcədə müasirləşdirilməsi, insan və vətəndaş hüquq-azadlıqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsi, ictimai rəy amilinə daha həssas münasibətin təmin edilməsi istiqamətində sistemli islahatlar həyata keçirir. Qısa müddətdə dövlətimizin başçısının reallaşdırdığı sosialyönümlü islahatlar paketi əhatəliliyinə görə cəmiyyətin bütün sferaları, o cümlədən məhkəmə-hüquq sistemi qarşısında da yeni çağırışları aktuallaşdırır.

Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı bu baxımdan müstəsna əhəmiyyətli sənəd kimi dəyərləndirilməlidir. Fərmanın imzalanması deməyə əsas verir ki, ölkəmizin davamlı tərəqqisinin təmin edilməsi üçün bütün sahələrdə həyata keçirilən islahatlar məhkəmə-hüquq sisteminin inkişafında da yeni mərhələnin başlanmasını və bu sahədə islahatların dərinləşdirilməsini zəruri edir. Fərmanda bütün məhkəmələrinin sədrləri və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət etmək tövsiyə edilmişdir.

Fərmanda, həmçinin, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi; sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması; hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması; hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onların maddi təminatının əhəmiyyətli dərəcədə artırılması; məhkəmələrdə işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi; məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması; ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və məhkəmələrdə işlərə baxılma müddətlərinin qısaldılması məqsədilə Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan məhkəmələrin hakimlərinin ümumi sayının 200 nəfər artırılması və digər bir sıra mühüm məsələlər öz əksini tapmışdır.

Sonda vurğulamaq istərdik ki, Astara Rayon Məhkəməsinin hər bir hakimi fəaliyyətində ölkə rəhbərliyinin və Məhkəmə-Hüquq Şurasının müəyyənləşdirdiyi vəzifələri rəhbər tutmağa, ilk növbədə, ədalət mühakiməsinin səmərəliliyini təmin etməyə, qanunun aliliyini qorumağa, vətəndaş hüquq və azadlıqlarını yüksək səviyyədə təmin etməyə çalışır. Ürəkdən inanırıq ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızın ədliyyə və məhkəmə sistemi daha da müasirləşəcək, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində öz sözünü deyəcəkdir.

**Zamin İBRAHİMOV,**
**Astara Rayon Məhkəməsinin sədri.**

# Gənc ədliyyə könüllüləri ilə görüş





**Müasir Azərbaycan gəncliyinin hərtərəfli inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi öndərin bu sahədə təməlini qoyduğu dövlət siyasəti ölkəmizdə gənclərin cəmiyyətin bütün sahələrində, o cümlədən dövlət idarəçiliyində fəal iştirakına əlverişli şərait yaradıb. Dövlət gənclər siyasətinin Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilməsi nəticəsində ictimai-siyasi həyatda gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib, könüllülük hərəkatı genişlənib. İstedadlı gənclərin dəstəklənməsi, onların innovativ potensiallarının və bacarıqlarının üzə çıxarılması istiqamətində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın mühüm fəaliyyəti xüsusi qeyd olunmalıdır. Cəmiyyətin fəal üzvünə çevrilən gənclər bu gün həm də könüllülük hərəkatının aparıcı qüvvəsi olmaqla səmərəli fəaliyyətləri ilə fərqlənirlər.**

Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ərəfəsində ədliyyə sahəsində könüllü fəaliyyətə cəlb edilən gənclərin növbəti böyük bir qrupu ilə Ədliyyə Nazirliyində görüş keçirilib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdən öncə könüllülər ümummilli lider Heydər Əliyevin nazirliyin binasındakı büstü önünə əklil qoyub, əziz xatirəsini ehtiramla yad edib, Ulu Öndərin adını daşıyan muzeydə zəngin və maraqlı ekspozisiyalarla tanış olublar.

Görüşdə çıxış edən ədliyyə nazirinin müavini Toğrul Musayev Azərbaycanın bugünkü uğurlu inkişafının təməlində dayanan, xalqın və dövlətin gələcəyinə işıq saçan Heydər Əliyev dühasından, zəngin irsindən bəhs edib, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət gənclər siyasəti sahəsində həyata keçirilən çoxşaxəli tədbirlərdən danışıb.

Ədliyyə orqanlarında könüllülərin fəaliyyətə geniş təşviq edildiyini bildirən nazir müavini dövlətimizin başçısının cari ilin fevralında gənclərlə keçirdiyi respublika toplantısında verdiyi tapşırıqlara və çağırışlara uyğun olaraq görülən işlər barədə məlumat verib. T.Musayev gənclərin ədliyyə sahəsində könüllü fəaliyyəti üçün elektron qaydada birbaşa müraciət etmək imkanlarının yaradıldığını, müvafiq ali təhsil müəssisələri və tələbə-gənclər təşkilatları, eləcə də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə səmərəli əlaqələrin genişləndirildiyini bildirib.

Hazırda 600-dən çox ədliyyə könüllüsü nazirliyin aparatında, icra və probasiya xidmətlərində, qeydiyyat və notariat orqanlarında, Ədliyyə Akademiyasında və regional ədliyyə idarələrində, habelə "ASAN School" proqramı çərçivəsində müvafiq məhkəmə aparatlarında fəaliyyətə cəlb olunub.

Nazir müavini gənclərə zəruri təcrübə toplamaları, milli və vətənpərvərlik ruhunda tərbiyə almaları, xalqa və dövlətə bağlılığı, müstəqilliyimizin möhkəmləndirilməsi, ədliyyə idarəçiliyində şəffaflığın və vətəndaş məmnunluğunun artırılmasında, ictimai nəzarətin həyata keçirilməsində fəal iştirak etmələri barədə tövsiyələr verib.

Tədbirdə iştirak edən "ASAN Könüllüləri" Təşkilatının sədri Səbinə Cabbarova son illər Azərbaycanda könüllülər hərəkatının geniş vüsət aldığını, minlərlə gəncin müxtəlif təşkilatlarda, o cümlədən "ASAN Könüllülər" şəbəkəsində fəaliyyətə cəlb edildiyini bildirib, bu sahədə Ədliyyə Nazirliyi ilə səmərəli əməkdaşlığı qeyd edib.

Ədliyyə naziri yanında İctimai Komitənin üzvü Şahin Camalov ədliyyə fəaliyyətində, o cümlədən qulluğa qəbul prosesində hər zaman şəffaflığa, ictimai iştirakçılığa böyük önəm verildiyini, gənclərə gələcək karyeralarını qurmaları işinə xüsusi qayğı ilə yanaşıldığını vurğulayıb.

Eyni zamanda, ədliyyə könüllülərinin fəaliyyət göstərdikləri sahələr üzrə təşəbbüsləri, innovativ ideyaları və təklifləri dinlənilib, gənclərin uğurla fəaliyyət göstərəcəklərinə, müstəqil Azərbaycanımızın hərtərəfli inkişafı üçün sədaqətlə və əzmkarlıqla çalışacaqlarına əminlik ifadə olunub.

Sonda ədliyyə könüllülərinə xüsusi hazırlanmış suvenirlər, həmçinin vəsiqə və nişan təqdim olunub, xatirə şəkli çəkdirilib.

**AZƏRTAC**

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

**Mayın 6-da Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - müdafiə nazirinin birinci müavini, general-mayor Oleq Belokonev ilə görüşüb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Belarus arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində birgə fəaliyyətin nəticələrindən məmnunluq ifadə olunub, bu istiqamətdə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər Belarusun hərbi-sənaye kompleksi müəssisələrinin istehsal etdiyi bütün qoşun növləri üçün nəzərdə tutulan müxtəlif təyinatlı hərbi məhsulların Azərbaycan Ordusunun silahlanmasına qəbul edilməsini müsbət qiymətləndiriblər.

Görüşdə ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın geniş spektri müzakirə edilərək Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönələn yeni böyük layihələrin həyata keçirilməsi istiqamətləri müəyyənləşdirilib.

**AZƏRTAC**

# Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanla enerji sahəsində əməkdaşlıqda maraqlıdır



**Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) olan iş adamlarından ibarət nümayəndə heyəti ilə görüşüb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin rəhbəri Əhməd Dalmuk Al Maktum energetika sahəsində əməkdaşlıq imkanları ilə maraqlanıb. Görüşdə bərpaolunan enerji sahəsində investor kimi iştirak, qaz və bərpaolunan enerji mənbələrindən elektrik enerjisinin istehsalında xərclərin azaldılması və səmərəliliyə nail olunması istiqamətində, eləcə də SOCAR-la əməkdaşlıq niyyətləri ifadə edilib.

P.Şahbazov BƏƏ ilə müxtəlif sahələr üzrə yüksək səviyyədə olan əlaqələrin enerji sektorunda da inkişafı üçün potensialın olduğunu bildirib. "OPEC plus" toplantıları çərçivəsində BƏƏ-nin energetika və sənaye naziri Suheyl əl-Mazrui ilə sıx təmasda olduğunu deyən nazir bu görüşlərin yeni əməkdaşlıq əlaqələrinin yaradılmasında mühüm rolunu qeyd edib. Belə görüşlərin nəticəsi kimi nazir hazırda "Mübadilə" şirkəti ilə müzakirələrin aparıldığını bildirib. Eyni zamanda, bərpaolunan enerji sahəsində "Masdar" şirkəti ilə əməkdaşlıq edildiyini diqqətə çatdırıb.

Görüşdə hazırda bərpaolunan enerji sahəsində həyata keçirilən kompleks tədbirlər, investorlar üçün əlverişli mühitin yaradılması istiqamətində görülən işlər, həmçinin müvafiq layihələr barədə məlumat verilib və BƏƏ-nin iş adamları ölkəmizdə enerji sahəsində iştiraka dəvət olunub.

**AZƏRTAC**

# Bakıda Avropa Gənclər Yay Olimpiya Festivalı ilə bağlı seminar keçirilib

**Mayın 6-da "Baku 2019" Avropa Gənclərinin Olimpiya Festivalının Əməliyyat Komitəsi qitə ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərləri üçün seminar təşkil edib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsi baş katibinin müavini Azər Əliyev, eyni zamanda, yarışa hazırlıq işləri ilə daha yaxından tanış olmaq üçün Bakıda səfərdə olan Avropa Olimpiya Komitəsinin (AOK) Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki və təşkilat komitəsinin üzvləri iştirak ediblər. Seminara Avropanın 40 ölkəsinin Milli Olimpiya komitələrinin 70 təmsilçisi, Avropa Olimpiya Komitəsinin nümayəndələri və AOK-un "Bakı 2019" üçün xüsusi olaraq yaratdığı Əlaqələndirmə Komissiyasının üzvləri də qatılıblar.

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək Avropa ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərinin Bakıya səfərinin əhəmiyyətini vurğulayaraq deyib: "Avropa Gənclərinin XV Yay Olimpiya Festivalı bütün qitəni birləşdirən tarixi idman bayramı olacaq. Avropa Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərlərini Bakıda görməyimə şadam. Bu gün bu seminarda idman arenalarının yarışlara hazırlığı, Atletlər kəndindəki son durum, təhlükəsizlik, antidopinq və digər mühüm məsələlər müzakirə edilir. Onların hər biri yarışların yüksək səviyyədə keçirilməsində müstəsna rol oynayır. Ötən dövrdə bizim Avropa ölkələrinin Milli Olimpiya komitələri ilə sıx işbirliyimiz olub və onlara hər bir dəstək göstərilib".

Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının rəhbəri Corce Visaçki seminarın Festivala hazırlıq prosesində əməkdaşlığı daha da gücləndirəcəyinə əminliyini bildirərək deyib: "Biz Avropa Gənclərinin Yay Olimpiya Festivalının ən əhəmiyyətli tərəfdaşları - Avropa Milli Olimpiya komitələrinin nümayəndələri ilə birgə gözəl Bakıya bir daha gəlməyimizdən böyük məmnunluq duyuruq. Avropa Olimpiya Komitəsi bu görüşlərin məhsuldar olacağına inanır".

Bu tədbir Avropa ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərlərinə texniki planlaşdırma və yarışlardan əvvəl keçirilən əməliyyatların bütün aspektləri ilə tanışlıq fürsəti verməklə yanaşı, onların "Bakı 2019" haqqında ən son məlumatlara sahib olma və komandalara müvafiq təlimlər verə bilmələri üçün təşkil edilib. Nümayəndə heyətləri tədbir çərçivəsində təşkil edilən iclaslarda idmançıların yerləşdirilməsi, akkreditasiya, nəqliyyat və digər mühüm məsələlər barədə müzakirələr aparıblar. Festivalın Əməliyyat Komitəsi seminarda Avropa ölkələrinin Milli Olimpiya komitələrinin nümayəndə heyətlərinin rəhbərlərinə idmançılara təqdim olunacaq medalları da nümayiş etdirib.

Tədbir çərçivəsində Avropa ölkələrinin Milli Olimpiya Komitələrinin nümayəndə heyətlərinin rəhbərləri Avropa Gənclərinin Yay Olimpiya Festivalı zamanı istifadə ediləcək bir sıra müasir idman obyektlərində, eləcə də Atletlər kəndində olacaqlar.

Xatırladaq ki, Avropa Gənclərinin XV Yay Olimpiya Festivalı iyulun 21-27-də Bakıda keçiriləcək. Yarışlarda iştirak etmək üçün Azərbaycana 3600-dən çox idmançı və texniki nümayəndə heyəti gələcək. Atletlər idmanın on növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək.

**AZƏRTAC**

# Paytaxtda növbəti iməcilik



Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birgə paytaxtın Xətai rayonundakı Cavanşir küçəsində növbəti iməcilik təşkil edilmişdir. İməcilikdə ümumilikdə 200 nəfərdən çox adam iştirak etmişdir.

Bu ərazidə görünüşə xələl gətirən hasarlar və kortəbii qanunsuz tikililər sökülmüş, ərazi yararsız tikinti materialları, daş və digər tullantılardan təmizlənmiş, ağacların və digər yaşıllıqların suvarılması üçün su xətləri çəkilibdir.

İməcilikdə 1000-ə yaxın yeni ağac əkilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günü ərəfəsində keçirilən iməcilik, küçə boyunca əkilən yeni ağaclar bu ərazidə ekoloji tarazlığın bərpası və ərazinin gözəlləşməsi istiqamətində görülən işlərin davamıdır.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri.**



# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində kollegiya iclası keçirilib

**Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində növbəti kollegiya iclası keçirilib.**

Komitədən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrası ilə bağlı həyata keçiriləcək tədbirlər müəyyənləşdirilib.

Sonra məcburi köçkünlərin qəzalı vəziyyətdə olan müvəqqəti məskunlaşma obyektlərindən köçürülməsi ilə əlaqədar görülən işlər və qarşıda duran vəzifələr, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun (MKSİF) sifarişi ilə tikintisi aparılan obyektlərin mövcud vəziyyəti və icrası nəzərdə tutulan layihələr, məşğulluq, miqrasiya və status məsələləri, vətəndaşların qəbulu və onların müraciətləri ilə bağlı görülən işlər, icra intizamı, Mənzil İstismar Departamentinin balansında olan mənzil fondunun saxlanması vəziyyəti və s. məsələlər müzakirə edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan islahatlar nəticəsində ölkəmizin dinamik inkişafının uğurla davam etdiyini diqqətə çatdıran Dövlət Komitəsinin sədri Rövşən Rzayev bildirib ki, bu vüsətli inkişaf ölkə vətəndaşlarının, o cümlədən məcburi köçkünlərin rifahının yaxşılaşdırılmasına, onların sosial problemlərinin həllinin sürətləndirilməsinə imkan yaradıb. Dövlətimizin başçısı məcburi köçkünlərin problemlərinin həllinin ən prioritet məsələlərdən olduğunu bir daha bəyan edərək bu kateqoriyadan olan vətəndaşlar üçün yeni yaşayış komplekslərinin tikintisinin genişləndirilməsi barədə tapşırıqlar verib. Ölkə rəhbərinin məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdə ədalət prinsipinin təmin olunmasının vacibliyini diqqətə çatdırması və bu gün bu prinsipin təmin edildiyini bildirməsi Dövlət Komitəsinin üzərinə böyük məsuliyyət qoyur. Hər bir əməkdaş bu məsuliyyəti daim hiss etməli, öz vəzifə səlahiyyətlərini mövcud qanunvericiliyə və ədalət prinsiplərinə tam uyğun şəkildə yerinə yetirməlidir.



İclasda məcburi köçkünlərin qəzalı vəziyyətdə olan məskunlaşma obyektlərindən yeni mənzillərə köçürülməsi ilə bağlı bu ilin birinci rübündə görülmüş işlər, qarşıya çıxan çətinliklər barədə geniş müzakirə aparılıb. Bildirilib ki, hesabat dövründə Bakı şəhərinin Qaradağ rayonu ərazisindəki "Ümid" qəsəbəsində ikinci mərhələdə inşa edilmiş 300 mənzildən ibarət məhəllədə, Abşeron rayonu ərazisindəki 1005, Sumqayıt şəhərindəki 1001 mənzilli yaşayış komplekslərində məcburi köçkünlərin yerləşdirilməsi başa çatdırılıb. Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində qəzalı və yaşayış üçün təhlükəli vəziyyətdəki obyektlərdə 2019-cu il yanvarın 1-nə olan məlumata görə, 8485 məcburi köçkün ailəsinin müvəqqəti məskunlaşdığı qeydə alınıb. Yeni mənzillərə, birinci növbədə, ən ağır şəraitdə yaşayan ailələr, həmçinin məcburi köçkün olan şəhid və əlil ailələri köçürülüb. Köçürülmə obyektlərində daşınmaz əmlakı, qeydiyyat uyğunsuzluğu olan məcburi köçkünlər aşkar edilir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 fevral tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin verilməsi Qaydası"na əsasən, onlara yeni yaşayış sahəsi verilmir. Bundan başqa, müvəqqəti məskunlaşma obyektlərində məcburi köçkün statusu olmayan şəxslərin və ailələrin yaşaması faktları da aşkar edilir ki, bu da köçürülmə prosesində ciddi problemlərin yaranmasına gətirib çıxarır. Belə bir fakt diqqətə çatdırılıb ki, təkcə Abşeron rayonunda 1, Sumqayıtda 2, Bakıda 18 qəzalı vəziyyətdə olan yataqxana və tədris korpusunda məcburi köçkün statusu olmayan 655 ailə və ya 2032 nəfər məskunlaşıb. Bu da ümumilikdə həmin obyektlərdə məskunlaşanların 37 faizini təşkil edir. Dövlət Komitəsinin yerli sektor və nümayəndəliklərinə tapşırılıb ki, belə halların vaxtında aşkarlanması və təxirəsalınmaz tədbirlər görülməsi üçün komitəyə məlumat versinlər və yerli icra hakimiyyəti orqanları ilə birlikdə müvafiq tədbirlər görsünlər.

Kollegiya iclasında məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 2019-2020-ci illərdə həyata keçiriləcək layihələr barədə məlumat dinlənilib. Qeyd edilib ki, MKSİF-in sifarişi əsasında, bu il Bakının Pirallahı rayonunda 300, Şirvan şəhərində 685, Kürdəmir rayonunda 563, Ucar rayonunda 250, Göygöl rayonunda 130, Ağcabədi rayonunun "Taxta körpü" adlanan ərazisində birinci mərhələdə 645 ailə üçün zəruri sosial-texniki infrastrukturu olan qəsəbələr, Beyləqan rayonu ərazisində 146 məcburi köçkün ailəsi üçün fərdi yaşayış evlərindən, məktəb, uşaq bağçası, klub-icma mərkəzi, tibb məntəqəsi və inzibati binadan ibarət qəsəbə, həmçinin Füzuli rayonunda 95 məcburi köçkün ailəsi üçün fərdi evlər tikilib istifadəyə veriləcək. Növbəti ildə isə belə layihələr Sumqayıt və Gəncə şəhərlərində, Ağcabədi, Şəmkir, Samux, Goranboy rayonlarında icra ediləcək. Eyni zamanda, "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" çərçivəsində digər yeni yaşayış məhəllələrinin salınmasının zəruriliyi də iclasda qeyd edilib.

Bundan başqa, kollegiyada məcburi köçkünlərin qeydiyyatının vahid elektron bazasının yaradılması işlərinin yaxın müddətdə tam başa çatdırılması, bu kateqoriyadan olan vətəndaşların məşğulluğunun artırılması barədə Dövlət Komitəsinin müvafiq strukturlarına tapşırıqlar verilib, vətəndaşların qəbulu və onların müraciətlərinə baxılması işinin daha da təkmilləşdirilməsi, mənzil fondunun qanunvericiliyə uyğun şəkildə istismarı ilə bağlı konkret tədbirlər müəyyənləşdirilib, həmçinin gündəlikdəki digər cari məsələlərə dair qərarlar qəbul edilib.

**AZƏRTAC**

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Bakı Marafonu-2019” keçirilib

**Mayın 5-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Bakı Marafonu-2019” keçirilib.**

AZƏRTAC xəbər verir ki, marafonda Bakı Media Mərkəzinin prezidenti Arzu Əliyeva da iştirak edib.

“Küləyə qalib gəl” şüarı altında artıq dördüncü ildir təşkil olunan marafon Dövlət Bayrağı Meydanından start götürərək, Bakı Olimpiya Stadionunadək 21 kilometr məsafəni əhatə edib.



Layihə idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək və insanları xeyirxah amallar ətrafında bir araya gətirmək məqsədi daşıyıb. Yarışda 16 yaşdan yuxarı şəxslər əvvəlcədən qeydiyyatdan keçərək iştirak ediblər.



Hər il daha çox iştirakçı sayı ilə diqqət çəkən marafonda bu dəfə 22 min 320 şəxs qeydiyyatdan keçib. Yarışa Azərbaycan vətəndaşları ilə yanaşı, bir sıra digər ölkələrdən də iştirakçılar qatılıb. Marafonda ABŞ, Avstriya, BƏƏ, Böyük Britaniya, Cənubi Afrika, Fransa, İran, Rusiya, İspaniya, İtaliya, Türkiyə, Ukrayna, Uqanda və digər ölkələrdən qoşulanlar olub. Eyni zamanda, Azərbaycanda yaşayıb-işləyən 300-dən çox əcnəbi, o cümlədən BƏƏ, Çin, Hindistan, İraq, İran, Qazaxıstan, Litva, Mərakeş, Özbəkistan, Türkiyə, Türkmənistan və digər ölkələrin Azərbaycandakı səfirlik və diplomatik nümayəndəliklərinin təmsilçiləri marafonçular sırasında olub.

Marafonda dövlət rəsmiləri, ictimai-siyasi xadimlər, tanınmış mədəniyyət və incəsənət adamları, idmançılar iştirak ediblər. Eyni zamanda, müxtəlif təşkilat və şirkətin təmsilçiləri korporativ iştirakçı kimi qeydiyyatdan keçiblər.

Builki marafona Heydər Əliyev Fondunun dəstəyi ilə protezlərlə təmin olunmuş bir qrup Qarabağ müharibəsi əlili də qoşulub.

Azərbaycanın Astara, Gəncə, Qəbələ, Quba, Qusar, Lənkəran, Mingəçevir, Naxçıvan, Sumqayıt, Şamaxı, Şəki, Oğuz, Zaqatala və digər bölgələrindən də yarışda iştirak edənlər olub.

Builki marafon bir sıra yeniliklərin tətbiqi ilə yadda qalıb. Bunlardan ən əhəmiyyətlisi ilk dəfə çip (xronometraj) sisteminin tətbiq olunmasıdır. Belə ki, yarışçıların qaçış nömrələrinin üzərinə xüsusi cihaz - çip yerləşdirilib. Sistemin tətbiqi marafonda iştirak edən hər kəsin marşrutboyu göstəricilərini detallı şəkildə görmək, finiş xəttini keçərkən göstərdiyi nəticəni izləmək və iştirakçıya elektron sertifikat əldə etmək imkanı qazandırıb.

Marafonun startında ilk dəfə olaraq “məşq zonası” yaradılıb və səhnədən isinmə hərəkətləri nümayiş etdirilib.

Marşrutboyu müxtəlif maraqlı əyləncəli proqramlar təqdim olunub, marafonçuları DJ və aparıcılar, barabançılar müşayiət edib.

İştirakçıların özlərinin də marafona maraqlı hazırlıqları diqqət çəkib. Belə ki, yarışçılar müxtəlif maraqlı kostyumlarda marafona özünəməxsus rəng qatıblar.

Bakı Olimpiya Stadionunda toplaşan azarkeşlər “Küləyə qalib gəl”ənləri dəstəkləyiblər. Yarışın təltifetmə mərasimi də Bakı Olimpiya Stadionunda olub. “Bakı Marafonu-2019”un qalibləri iki kateqoriya üzrə müəyyən olunub. Kişilər arasında uqandalı atlet İsmail Ssenyange finiş xəttinə birinci çatıb. İran təmsilçisi Məhəmməd Cəfər Moradi ikinci, həmyerlimiz Elman Abışov isə üçüncü olub. Qadınların arasında isə ukraynalı Valentina Poltavskaya, şotlandiyalı Suzanne Matonti və Azərbaycan təmsilçisi Anna Yusupova müvafiq olaraq I-III yerləri tutublar.

Kişi və qadın kateqoriyalarının hər birində ilk yerin sahibi 3000, ikinci yeri qazanan 2000, üçüncü yerə çıxan isə 1000 manat məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunublar.

Bundan əlavə, marafonun eksklüziv tərəfdaşı və sponsorları iştirakçılara müxtəlif nominasiyalar üzrə bir sıra mükafatlar təqdim edib. Qadın və kişi kateqoriyalar üzrə finiş xəttini ilk keçən tələbələr Parisdə Disneylənddə tətil, korporativ iştirakçılar isə İstanbul marafonuna qeydiyyat və gediş-dönüş bileti qazanıblar.





Marafon iştirakçısı olan Azərbaycan vətəndaşlarına bir neçə nominasiyada mükafatlar təqdim olunub. Qadın və kişi kateqoriyası üzrə finiş xəttini keçən ilk Azərbaycan vətəndaşları Gürcüstanda keçiriləcək “Wings for Life World Run 2020” marafonunda iştirak etmək hüququ əldə ediblər. Bundan əlavə, finiş xəttini ilk keçən 50 yaşdan yuxarı Azərbaycan vətəndaşlarına (qadın və kişi kateqoriyası üzrə), həmçinin finişə çatmış ilk 5 azərbaycanlı xanıma müxtəlif hədiyyələr verilib.

Finiş xəttini ilk keçən maraqlı kostyumlu marafonçu, 10 xarici marafonçu, 3 xanım nominasiyalar üzrə mükafatlandırılıb.

Həmçinin martın 4-dən mayın 1-dək marafonda iştirak üçün qeydiyyatdan keçənlər arasında lotereyanın qalibi olmuş iki nəfərə də hədiyyə təqdim olunub.

Bunlardan əlavə, finiş xəttini keçən ilk 1000 iştirakçı “Bakı Marafonu-2019”un xüsusi medalı ilə təltif edilib.

“Bakı Marafonu-2019”un eksklüziv tərəfdaşı “Azercell Telekom” şirkətidir.

“Bakı Marafonu-2019”dan toplanan vəsait Heydər Əliyev Fondunun valideyn himayəsindən məhrum olan uşaqlarla bağlı layihəsinə yönəldiləcək.

Xatırladaq ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə “Küləyə qalib gəl” şüarı altında Bakıda ilk marafon 2016-cı il mayın 1-də, ikinci yarımarafon 2017-ci il aprelin 30-da, üçüncü yarımarafon isə 2018-ci il mayın 13-də keçirilib. Bu layihə region sakinləri tərəfindən böyük marağa səbəb olduğundan 2017-ci il sentyabrın 17-də Gəncədə də yarımarafon təşkil edilib.

**AZƏRTAC**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada “Dostluq marafonu” keçirilib



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada “Dostluq marafonu” keçirilib.**

AZƏRTAC xəbər verir ki, marafon Rusiya Azərbaycanlı Gənclər Birliyi (RAGB) tərəfindən Ümumrusiya Millətlərarası Gənclər İttifaqının dəstəyi ilə təşkil edilib. “Küləyə qalib gəl” Bakı marafonuna dəstək məqsədilə keçirilən, müxtəlif millətlərə və dinlərə mənsub olan insanları birləşdirən, idman vasitəsilə sağlam həyat tərzini təbliğ edən aksiyada RAGB-nin nümayəndələri, Rusiyanın ali məktəblərinin tələbələri iştirak edib.

Moskva “Dostluq marafonu”nun məsafəsi 8 kilometrə yaxın olub. İştirakçılar “Universitet” metrosunun yaxınlığında start götürərək, şəhərin müxtəlif yerlərindən - Kosıgin küçəsindən, “Vorobyovı qorı”dan, Puşkinsk və Frunzensk sahilboyundan, “Neskuçnı sad”dan keçərək Qorki parkında finişə çatıblar.

**AZƏRTAC**

# OANA-nın prezidenti Qəzzada Anadolu Agentliyinin ofis binasına raket hücumunu pisləyib

**Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) prezidenti İsrail ordusunun Qəzzada Anadolu Agentliyinin ofis binasına raket hücumunu pisləyib.**

AZƏRTAC xəbər verir ki, Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının prezidenti Aslan Aslanov OANA-nın üzvü olan Anadolu Agentliyinin İdarə heyətinin sədri və baş direktoru Şenol Kazancıya ünvanladığı məktubunda media təmsilçilərinə, söz və məlumat azadlığına qarşı hər hansı bir hücumun yolverilməz olduğunu bildirib, hadisədən təəssüfləndiyini ifadə edib. OANA-nın prezidenti qeyd edib ki, kütləvi informasiya vasitələrinin, jurnalistlərin fəaliyyətinin məhdudlaşdırılmasına göstərilən cəhdlər söz və fikir azadlığına təhdiddir, beynəlxalq hüququn normalarına ziddir.

OANA

Xatırladaq ki, İsrail ordusu Qəzzadan atılan raketlərə cavab olaraq bölgədə hava hücumları həyata keçirib. Hava hücumu nəticəsində Anadolu Agentliyinin buradakı ofisinə 5 raket atılıb və ofis binası tamamilə dağılıb.

1961-ci ildə UNESCO-nun himayəsi ilə yaradılan OANA 35 ölkənin 44 agentliyini öz ətrafında birləşdirir. AZƏRTAC 2016-cı ildən bu təşkilata sədrlik edir.

**AZƏRTAC**

# Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalının medalları ictimaiyyətə təqdim olunub

**Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalının medalları mayın 6-da ictimaiyyətə təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Avropa Olimpiya Komitəsinin (AOK) Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçki və digərləri iştirak ediblər.

Üzərində “Bakı 2019”un loqosu əks olunmuş qızıl, gümüş və bürünc medalların dizaynı Bakının irs və mədəniyyətini, eləcə də birlik və dostluq konsepsiyasını birləşdirən təsvirlərə əsaslanır. Medalda od və Azərbaycan paytaxtının müasir möhtəşəm memarlıq abidələrindən olan Alov qüllələrinin və Heydər Əliyev Mərkəzinin təsvirləri yer alıb. Medalın digər üzündə isə Avropa Olimpiya Komitəsinin



emblemi əks olunub. Mükafatlar “Azərsuvenir” MMC tərəfindən “Bakı 2019” Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsinin dizayn komandası ilə əməkdaşlıq şəraitində hazırlanıb.

Medalların dizaynından danışan gənclər və idman naziri Azad Rəhimov vurğulayıb: “Festivalın başlanmasına qısa vaxtın qaldığı dövrdə medalların təqdimatı çox önəmli hadisədir. Medallar festivalın üç vacib dəyərini - yenilik, keyfiyyət və şəffaflığı təcəssüm etdirir”.

Azad Rəhimov hədiyyə medal dəstini Avropa Olimpiya Komitəsi Əlaqələndirmə Komissiyasının rəhbəri, Serbiya Milli Olimpiya Komitəsinin baş katibi Corce Visaçkiyə təqdim edib.

Corce Visaçki bildirib: “Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalının rəsmi medallarını görməkdən böyük məmnunluq hissi duyuruq. Hər bir idmançı üçün mükafat onun uğur və qələbələrinin rəmzi olaraq əbədi qalır. Biz bütün idmançıların Olimpiya dəyərlərini bölüşdüyünə və onların bir daha Azərbaycandan öz ölkələrinə uğurlarından qaynaqlanan böyük sevinc hissini, həmçinin dostluq, dözümlülük və sülh mesajlarını aparacaqlarına inam bəsləyirik”.

Qeyd edək ki, iyulun 21-27-də keçirilən XV Avropa Gənclər Olimpiya Festivalında 135 mükafatlandırma mərasimi təşkil olunacaq. Yarışlarda idmançılar 298 medal dəsti uğrunda mübarizə aparacaqlar. Festivalda 3600-dən çox atlet idmanın on növü üzrə yarışacaq.

**AZƏRTAC**

# Yol-nəqliyyat hadisəsi törədərək qaçan sərnişin avtobusunun sürücüsü məsuliyyətə cəlb olunub

**Paytaxtın Sabunçu rayonu ərazisində yol-nəqliyyat hadisəsi törədərək qaçan sürücü rayonun polis və prokurorluq əməkdaşları tərəfindən həyata keçirilmiş təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində tutularaq istintaqa cəlb edilib.**

Bakı Şəhər Baş Polis İdarəsinin və Şəhər Prokurorluğunun AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, mayın 5-də Sabunçu rayonunun Zabrat qəsəbəsində 1981-ci il təvəllüdlü Əliyev Samir Sabir oğlunun 217 nömrəli marşrut xətti üzrə idarə etdiyi “İsuzu” markalı 01-BM-698 dövlət qeydiyyat nişanlı sərnişin avtobusu ilə yol kənarında dayanmış “Ford Transit” markalı 90-CO-434 dövlət qeydiyyat nişanlı yük avtomobilinin toqquşması nəticəsində 7 nəfərin zərər çəkməsi və Samir Əliyevin hadisə yerindən qaçması faktına görə rayon polis idarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263.1-1 (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda) və 264-cü (yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə hadisə yerinə baxış keçirilib, zəruri ekspertizalar təyin olunub və digər təxirəsalınmaz istintaq hərəkətləri həyata keçirilib.

Aparılmış istintaqla hadisənin Samir Əliyev tərəfindən yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarının kobud surətdə pozularaq törədilməklə yol-nəqliyyat hadisəsi yerindən qaçmasına əsaslı şübhələr müəyyən edilib.

İstintaq-əməliyyat tədbirləri nəticəsində S.Əliyev mayın 6-da şübhəli şəxs qismində tutularaq müdafiəçi ilə təmin edilməklə dindirilib.

Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

**AZƏRTAC**

# Bakıda Türk Şurasının media və informasiya sahəsində əməkdaşlıq üzrə işçi qrupunun VII toplantısı keçirilib

**Mayın 6-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) media və informasiya sahəsində əməkdaşlıq üzrə işçi qrupunun VII toplantısı keçirilib.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının təşkilatçılığı ilə keçirilən tədbirdə Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşları, Türk Şurası katibliyinin rəhbərliyi, üzv dövlətlərin - Azərbaycanın, Türkiyənin, Qazaxıstanın və Qırğızıstanın informasiya və media üzrə rəsmiləri, milli ictimai televiziya kanallarının, AZƏRTAC, Anadolu, Kazinform, Kabar milli informasiya agentliklərinin məsul şəxsləri iştirak ediblər.

İşçi qrupunun toplantısında VI iclasdan sonrakı dövrdə görülən işlər, Türk Şurasının üzv dövlətləri arasında media və informasiya sahəsində əməkdaşlığın inkişafı, türk xalqlarının tarixi və mədəniyyəti barədə videofilmlərin və cizgi filmlərinin hazırlanması, milli ictimai televiziya kanallarının nümayəndələrindən ibarət əlaqələndirici qrupun yaradılması, çoxtərəfli texniki əməkdaşlıq protokolu layihəsinin tərtib olunması, beynəlxalq media forumlarında Türk Şurasının iştirakı, media ekspertləri üçün proqram mübadiləsi və təlim kurslarının təşkili, nazirlərin toplantısının gündəliyinin layihəsi, işçi qrupunun növbəti iclasının vaxtı və digər məsələlər müzakirə edilib.

Toplantını Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibinin müavini Ömər Kocaman açaraq müzakirə olunan məsələlər barədə məlumat verib.

Azərbaycanın İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktorunun müavini Murad Hüseynov bildirib ki, operativ xəbər və videomübadilələrin həyata keçirilməsi üçün texniki baxımdan mükəmməl şəbəkə qurulmalıdır. O əlavə edib ki, İctimai Televiziya Avropa Yayımları Birliyi ilə bu şəkildə rahat əməkdaşlıq edir. M.Hüseynov Şuraya üzv ölkələrin televiziyalarının səhər verilişlərinə canlı yayımla qoşulması təşəbbüsü ilə çıxış edib. Təklif Şura üzvləri tərəfindən müsbət qarşılanıb.

Ömər Kocaman səslənən təkliflərin reallaşdırılması istiqamətində işlərin aparılmasının zəruri olduğunu deyib. O, həmçinin təklif edib ki, iyunda Şuranın növbəti iclası keçirilsin.

“TRT AVAZ” telekanalının əlaqələndiricisi Sedat Sağırkaya Azərbaycanda və Orta Asiya ölkələrindəki telekanallarla əməkdaşlıq həyata keçirdiklərini, bu əməkdaşlığın yüksək səviyyədə davam etdiriləcəyini vurğulayıb. O əlavə edib ki, türkdilli ölkələrin televiziya kanalları ilə müzakirələr davam etdirilir. Hər bir kanalın tövsiyələri nəzərə alınır, çəkilən sənədli filmlərin mübadiləsi aparılır.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib ki, tərəflərin bir-biriləri ilə əməkdaşlıq şəraitində çalışmaları üçün çoxtərəfli müzakirələr platforması yaradılmalıdır. Bunun üçün katiblikdən və üzv ölkələrdən məsul şəxslər təyin olunmalıdır.

Ömər Kocaman qeyd edib ki, Şura bunun üçün ortaq virtual şəbəkə yaratmaqla bağlı qərara gəlib. İyunda keçiriləcək toplantıda bununla əlaqədar qərarların reallaşdırılması istiqamətində müzakirə aparılacaq.

Daha sonra Türk Şurasına üzv dövlətlərin tarixi və mədəniyyəti barədə filmlərin, serialların və videomaterialların hazırlanması məsələsi müzakirə olunub. Bundan başqa, türk dünyasının 100 böyük şəxsiyyəti ilə bağlı sənədli filmlərin hazırlanması barədə təklif irəli sürülüb.

Sedat Sağırkaya qeyd edib ki, “TRT AVAZ” artıq bu işə start verib. Azərbaycandan və Orta Asiyadan olan tarixi şəxsiyyətlərlə bağlı filmlər hazırlanıb. Lakin bu işin sürətləndirilməsi üçün digər türkdilli dövlətlərin əməkdaşlığına ehtiyac var.

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin əməkdaşı Bəhruz Həsənov qeyd edib ki, türk dünyasının ortaq layihəsinə özəl televiziyaları və agentlikləri də cəlb etmək olar. Bundan başqa, o bildirib ki, TRT-nin yayımladığı tarixi seriallara digər türkdilli ölkələrdən də aktyorların cəlb edilməsi yaxşı olar. Bəhruz Həsənov, həmçinin əlavə edib ki, ortaq xəbər sistemi yaratmaq üçün Şuraya üzv ölkələrin jurnalistlərinin birgə bakalavr və magistratura üzrə təhsil almalarına şərait yaradılmalıdır.

Toplantının ikinci sessiyası müzakirələrlə və təkliflərin səsləndirilməsi ilə davam edib.

Ortaq türk televiziya kanalı ilə bağlı müzakirələr zamanı onun “TRT AVAZ”ın bazasında yaradılması təklifi irəli sürülüb. Qazaxıstan nümayəndə heyəti sabiq Prezident Nursultan Nazarbayevin “Böyük Çölün yeddi özəlliyi” adlı məqaləsi ilə bağlı sənədli filmin çəkilməsi təklifi ilə çıxış edib.

Daha sonra Türk Şurası xəbər agentlikləri arasında əməkdaşlıq məsələləri müzakirə olunub.

AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılov çıxış edərək deyib ki, təmsil etdiyi agentlik türkdilli dövlətlərin informasiya agentlikləri ilə sıx əməkdaşlıq edir. AZƏRTAC-ın hazırda sədrlik etdiyi Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı (OANA) və digər regional media qurumları çərçivəsində də türkdilli dövlətlərin agentlikləri ilə əməkdaşlıq həyata keçirdiyini vurğulayan İdarə Heyətinin sədr müavini bir sıra təkliflər səsləndirib. Qeyd edib ki, daha asan və texniki baxımdan az resurs tələb edən “informer” üsulundan istifadə etmək faydalı olar. Məsələn, Türk Şurasının turkicmedia.org saytını üzv agentliklər “informer” vasitəsilə öz oxucularına yönəldə bilər. Bu, vahid mənbənin xəbərlərini yaymağa və pərakəndəliyin qarşısını almağa kömək olar. AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini deyib ki, bu gün multimedia sahəsi üzrə jurnalistlərin hazırlanmasına ehtiyac var. Bunun üçün müvafiq proqramlar hazırlanmalıdır. Bu işdə Türk Şurası mühüm rol oynaya bilər.

KAZİNFORM agentliyinin şef redaktoru Bakıtjan Yerbasov da təmsil etdiyi qurumun türkdilli dövlətlərin xəbər agentlikləri ilə əməkdaşlıq həyata keçirdiyini bildirib. O, Şuranın ortaq xəbər blokunun gücləndirilməsi təklifi ilə çıxış edib.

Anadolu Agentliyinin İdarə Heyətinin üzvü Əli Türker Pirtini bildirib ki, təmsil etdiyi qurum türkdilli dövlətlərin agentlikləri ilə əməkdaşlığa böyük önəm verir. Agentliyin təşkil etdiyi akademiyada Azərbaycandan, Qazaxıstandan, Qırğızıstandan və digər dövlətlərdən olan mətbuat nümayəndələri kurs keçiblər.

Agentliyin Bakı bürosunun rəhbəri Tolqa Özgənc AZƏRTAC-ın rəhbərlik etdiyi OANA-nın saytında türkdilli ölkələrlə bağlı xəbərlərin paylaşılmasının önəmini qeyd edib.

Sonda “TRT AVAZ”ın Türk Şurasına üzv ölkələrin tarixi və mədəniyyəti ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

Qeyd edək ki, Türk Şurasının informasiya və media üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərin mayın 7-də keçiriləcək iki sessiyadan ibarət toplantısında isə ikitərəfli görüşlər təşkil olunacaq, gündəlikdə duran məsələlər və işçi qrupunun toplantısının yekunları müzakirə ediləcək, milli ictimai televiziya kanalları arasında çoxtərəfli texniki əməkdaşlıq protokolunun imzalanması mərasimi olacaq.

**AZƏRTAC**

# Britaniyalılar Bakının məişət tullantılarının idarə olunması işlərinə başladılar

**Ölkə başçısının tapşırıqlarına əsasən Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Böyük Britaniyanın tanınmış Mott MacDonald şirkəti ilə müqavilə bağlanmış və müqaviləyə uyğun olaraq şirkət tərəfindən Bakı şəhərində bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin idarə olunması konsepsiyası hazırlanması işləri sürətlə davam edir.**

Bununla əlaqədar şirkətin 2 mütəxəssisi - Alex Symeonidis və Nick Wilson Bakıdadırlar və onların rəhbərliyi ilə yeni yaradılmış Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Məişət Tullantılarının İdarə Edilməsi üzrə Monitorinq Mərkəzində 2 həftə ərzində ərazidən yığılmış məişət tullantılarının kompozisiyası araşdırılır. Bu müddət başa çatdıqdan sonra yekun nəticələrə əsasən məişət tullantılarının yığılması və daşınması sahəsində yeni innovativ metodların tətbiq edilməsi üçün lazımi qərarlar veriləcək.



Bu proses bir neçə ay ərzində başa çatdırılacaq və bu işlərin gedişatına paralel olaraq məişət tullantılarının yığılması üçün xüsusi qabların (konteynerlərin) ölçüləri, rəngləri, üzərində yazılacaq loqolar və ən əsası əhali arasında maarifləndirmə işlərinin aparılması nəzərdə tutulur.

Konsepsiya çərçivəsində artıq 3 aya yaxındır ki, Bakı şəhərində işlər gedir, 7 rayonda (Səbail, Nərimanov, Yasamal, Nəsimi, Binəqədi, Nizami və Xətai) məişət tullantıları üçün yeni müasir konteynerlər qoyulub, digər rayonlarda da yeni konteynerlərin qoyulması nəzərdə tutulub. Konsepsiyanın başa çatdırılması işləri 2019-cu ilin sonu 2020-ci ilin əvvəlinə nəzərdə tutulub.



Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yaradılan Monitorinq Mərkəzində Böyük Britaniya Mott MacDonald şirkətinin mütəxəssisləri Alex Symeonidis və Nick Wilson ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya çəərçərçivəsində görülən və nəzərdə tutulan işlər barədə ətraflı məlumat vermiş və jurnalistləri maraqlandıran sualları cavablandırmışlar.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri.**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
"Dövlət Aqrar Ticarət Şirkəti" MMC
AÇIQ TENDER ELAN EDİR

Tender 1 lot üzrə keçirilir:
Maarifləndirmə xarakterli videoçarxların hazırlanması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, iddiaçının müvafiq sahədə təcrübəsi, maliyyə vəziyyəti.

İşlər Sifarişçinin sifarişi əsasında hissə-hissə, müxtəlif dövrlərdə yerinə yetiriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nizami küçəsi 154A ünvanından (Əlaqələndirici şəxs: Hümbət Hüseynov, tel: (+99450 400 88 99)) ala bilərlər.

İştirak haqqı: 150 (bir yüz əlli) manat

Təşkilat: Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Aqrar Ticarət Şirkəti" MMC
VÖEN: 1005376781
Hesab:
AZ38AİİB38070019440419533105
VÖEN: 9900003611
Bank: Kapital Bank ASC Səbail filialı
Kodu: 200059
Müxbir hesab: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T. Code: AİİBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklif dəyərinin 1 %-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının son üç ildə yerinə yetirdiyi anoloji müqavilələr və anoloji sahədə fəaliyyət müddəti barədə məlumat;
-iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-müvafiq lisenziya və sertifikatlar.

Tender təklifi Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 iyun 2019-cu il saat 18:00-dək, tender təklifi və bank təminatını isə (bank təminatının təqdim edilmədiyi halda təklif açılmadan geri qaytarılacaqdır) möhürlənmiş ikiqat zərfdə 24 iyun 2019-cu il saat 18:00-dək Bakı şəhəri, Nizami küçəsi 154A ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 iyun 2019-cu il tarixində saat 12:00-da Bakı şəhəri, Nizami küçəsi 154A ünvanında daxilolma ardıcıllığı ilə açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

---

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
"Dövlət Aqrar Ticarət Şirkəti" MMC
AÇIQ TENDER ELAN EDİR

Tender 1 lot üzrə keçirilir:
Kənd təsərrüfatı məhsullarının onlayn şəkildə alış-verişini təmin edəcək elektron ticarət platformasının yaradılması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, iddiaçının müvafiq sahədə təcrübəsi, maliyyə vəziyyəti.

İşlər Sifarişçinin sifarişi əsasında hissə-hissə, müxtəlif dövrlərdə yerinə yetiriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nizami küçəsi 154A ünvanından (Əlaqələndirici şəxs: Hümbət Hüseynov, tel: (+99450 400 88 99)) ala bilərlər.

İştirak haqqı: 150 (bir yüz əlli) manat

Təşkilat: Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Aqrar Ticarət Şirkəti" MMC
VÖEN: 1005376781
Hesab:
AZ38AİİB38070019440419533105
VÖEN: 9900003611
Bank: Kapital Bank ASC Səbail filialı
Kodu: 200059
Müxbir hesab:
AZ37NABZ01350100000000001944
S.W.İ.F.T. Code: AİİBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklif dəyərinin 1 %-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının son üç ildə yerinə yetirdiyi anoloji müqavilələr və anoloji sahədə fəaliyyət müddəti barədə məlumat;
-iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-müvafiq lisenziya və sertifikatlar.

Tender təklifi Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 iyun 2019-cu il saat 18:00-dək, tender təklifi və bank təminatını isə (bank təminatının təqdim edilmədiyi halda təklif açılmadan geri qaytarılacaqdır) möhürlənmiş ikiqat zərfdə 24 iyun 2019-cu il saat 18:00-dək Bakı şəhəri, Nizami küçəsi 154A ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 iyun 2019-cu il tarixində saat 15:00-da Bakı şəhəri, Nizami küçəsi 154A ünvanında daxilolma ardıcıllığı ilə açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

TENDER KOMİSSİYASI.

---

TƏKRAR

## Bakı Nəqliyyat Agentliyi müxtəlif təyinatlı svetoforlar və hissələrinin, səsli qurğuların, xüsusi düymələrin, dirəklərin və kontrollerlərin satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

**Lot 1** - Müxtəlif təyinatlı svetoforlar və hissələri, səsli qurğular, xüsusi düymələr, dirəklər və kontrollerlər

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanından (Əlaqələndirici şəxs: Çobanova Sevinc Ələddin qızı telefon: 404-41-20 (daxili 2268)) ala bilərlər.

**İştirak haqqı:**
**lot 1 - 1000 manat**
*Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. BİK: CTREAZ 22*
*Bakı Nəqliyyat Agentliyi*
*Hesab AZ88CTRE00000000000008147701*
*VÖEN: 1503112971*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*-Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 30.05.2019-cu il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 12.06.2019-cu il saat 12:00-a qədər Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən Bakı Nəqliyyat Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 13.06.2019-cu il tarixdə saat 12:00-da Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən Bakı Nəqliyyat Agentliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

"Respublika" qəzetinin 08 mart və 20 mart 2019-ci il tarixli nömrələrində dərc olunmuş elana əsasən Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Lot-1 Bərk inventar, Lot-2 Digər alış və xidmətlər, Lot-3 Sair xərclərin satınalınması üzrə keçiriləcək açıq tender zərflərin açılış müddəti 16 may 2019-cu il saat 16:00-dək uzadılır. Açıq tender prossedurunda iştirak etmək üçün iddiaçılar tender təkliflərini 15 may 2019-cu il saat 17:00-a kimi təqdim etməlidirlər.

**Tender Komissiyası.**

---

Bildiriş

Kənd Təsərrüfatı Nazirliyi, "Ərzaq məhsullarının Tədarükü və Təchizatı" ASC nəzarət və barmaq izi cihazlarının kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+99412) 404-16-56 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 15 may 2019-cu il, saat 18:00 tarixinədək qəbul olunur

Ünvan: Bakı şəhəri, Səbail rayonu, Zərifə Əliyeva 41, BEGOC Business Center, 6-cı mərtəbə.

---

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Kəşfiyyat sahələrindən götürülmüş süxur nümunələrinin geokimyəvi analizi üzrə laborator xidmətlərin satın alınması" üçün 26 fevral 2019-cu il tarixində elan edilmiş açıq tender üzrə malgöndərənlərin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Qanunun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi 15 may 2019-cu il saat 15.00-dək, tenderə kommersiya təklifinin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 23 may 2019-cu il saat 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərin açılışı 24 may 2019-ci il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Aygül Tağıyeva (Tel.: 012-505-02-02, daxili 1108).**

---

TƏKRAR

## "AZERGOLD" QSC

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir: İnformasiya-Kommunikasiya Texnologiyaları (İKT) avadanlıqlarının satınalınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel.: 012-505-02-02 (dax.1108), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 250 manat. İştirak haqqı heç bir halda geri qaytarılmır.**
*Hesab:*
*AZ85PAHA38020AZNHC0190068658*
*VÖEN: 1403467421*
*Bank: "PAŞA Bank" ASC*
*Kodu: 505141*
*VÖEN: 1700767721*
*M/H: AZ82NABZ01350100000000071944*
*S.W.İ.F.T: PAHAAZ22*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*
*7. Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər).*

